Xalqın qəzeti!

# Xalq qəzeti

№ 190 (30594) 3 sentyabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Qarabağın yaralarına məlhəm qoyulur

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayonuna səfər ediblər



## "Yuxarı Vəng" Su Elektrik Stansiyasının açılışı

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonuna səfər ediblər.**

Dövlətimizin başçısı və birinci xanım Kəlbəcər rayonunda Tərtər çayı üzərində yerləşən "AzərEnerji" ASC-nin 22,5 MVt gücündə "Yuxarı Vəng" Su Elektrik Stansiyasının açılışında iştirak ediblər.

"AzərEnerji" ASC-nin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər barədə məlumat verdi.

Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərin yaşıl enerji zonasına çevrilməsi istiqamətində strategiyasına uyğun olaraq "AzərEnerji" ASC tərəfindən Kəlbəcərdə yeni tikilən "Yuxarı Vəng" Su Elektrik Stansiyası Vətən müharibəsində Qələbəmizdən sonra regionda yaradılan ən böyük yaşıl enerji mənbəyidir. Belə ki, təkcə bu SES-də istehsal edilən yaşıl enerji növbəti 5 il ərzində Kəlbəcər rayonunun elektrik enerjisi tələbatını tam ödəyə bilər.

Ümumi gücü 40 meqavat olan "Kəlbəcər" SES silsiləsi azad edilən ərazilərdə 42 meqavatlıq "Zəngilan" SES silsiləsindən sonra tikilən ikinci böyük silsilədir.

Bildirildi ki, "Yuxarı Vəng" SES-ə su iki mənbədən – "Nadirxanlı" SES-in çıxışı və Tutqu çayı üzərində inşa edilən baş suqəbuledici qurğudan daxil olur. Müasir avadanlıqla təchiz edilən stansiyada 110 kilovoltluq Açıq Paylayıcı Qurğu tikilib və 24 damarlı optik kabel xətti çəkilib. Bununla da stansiya mərkəzləşmiş SCADA sisteminə inteqrasiya olunmaqla yanaşı, ən müasir rəqəmsal idarəetmə sistemləri ilə təchiz olunub və burada lazımi kibertəhlükəsizlik tədbirləri görülüb.

*(ardı 2-ci səhifədə)*

## Bakı Avropa İttifaqının "sərhəd missiyası"na qarşı

### *Azərbaycan Prezidentinin köməkçisi hansı mesajları verdi?*

**Əminliklə deyə bilərik ki, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bir neçə gün əvvəlki açıqlaması Ermənistan baş naziri Nikol Paşinyanın timsalında bu ölkənin Bakı–İrəvan sülh nizamlamasına kənar oyunçuları cəlb etmək məramına cavab idi. Nəzərə alaq ki, Paşinyan ikitərəfli danışıqların effektivliyindən söz açsa da, onun Qərb vasitəçilik xəttini daim aktiv saxlamaq istəyi duyulmaqdadır.**



Onu da nəzərə alaq ki, son zamanlar bu xəttə fərqli elementləri daxil etməyə yönələn cəhdlər var. Azərbaycan dövləti H.Hacıyevin dili ilə Avropa İttifaqının Azərbaycan–Ermənistan şərti sərhədindəki mülki müşahidə missiyasına fokuslanaraq, əslində, həmin fərqli elementlərin qeyri-məqbulluğunu vurğulayır, mövcud istiqamətdə, bir növ, immunitet yaradır. Məsələn, canını tapşırmış ATƏT-in Minsk qrupunu "diriltmək" meyillərini götürək. Bu barədə söz açacağıq. Hələlik isə...

*(ardı 7-ci səhifədə)*

## Sağlam rəqabət iqtisadi yüksəlişə meydan açır

### *Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yenidən təşkili ciddi yeniliklər yaradacaq*

**Azərbaycan Prezidenti İlham Əliyev "Antiinhisar və istehlak bazarına nəzarət sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 27 avqust 2024-cü il tarixli fərman imzalayıb. Sənədə görə, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin əsasında Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradılıb.**

(ardı 9-cu səhifədə)



## **Ərdoğan:** Seçkilər Azərbaycan xalqının iradəsini əks etdirdi



**Sentyabrın 2-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Rəcəb Tayyib Ərdoğan Azərbaycanda keçirilən parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb.

Türkiyə Prezidenti bu seçkilərin Azərbaycanın suverenliyinin tam bərpa edilməsindən sonra ölkəmizin bütün ərazisində keçirilən ilk parlament seçkiləri olmasının önəmini qeyd edib. Rəcəb Tayyib Ərdoğan seçkilərin azad, sərbəst, demokratik şəraitdə keçdiyini və Azərbaycan xalqının iradəsini əks etdirdiyini vurğulayıb.

Prezident İlham Əliyev təbrikə görə təşəkkürünü bildirib.

Telefon danışığı zamanı Azərbaycanla Türkiyə arasında parlamentlərarası əlaqələrin əhəmiyyəti və parlament nümayəndə heyətlərinin mütəmadi qarşılıqlı səfərləri qeyd olunub. Eyni zamanda, ölkəmizdə keçirilən bu seçkilərdə Türkiyə Böyük Millət Məclisinin parlamentlərarası dostluq qrupunun müşahidəçi qismində geniş tərkibdə iştirak etdiyi bildirilib.

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

**Prezidentin Mətbuat Xidməti**

## Birinci vitse-prezident Mehriban Əliyeva paraatlet Səid Nəcəfzadəni Paralimpiya çempionu olması münasibətilə təbrik edib

**Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan paraatleti Səid Nəcəfzadənin "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması ilə bağlı paylaşım edib.**




AZƏRTAC paylaşımı təqdim edir: "Paraatlet Səid Nəcəfzadəni "Paris-2024" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanması münasibətilə təbrik edirəm! Peşəkarlıq və qətiyyət nümayiş etdirən idmançımız Azərbaycan azarkeşlərinin ümidlərini doğrultdu! Çempionu səmimi-qəlbdən təbrik edir, ona yeni nailiyyətlər arzulayıram!".

## Paşinyanın anti-Rusiya tezisləri

### *Yaxud, köhnə-yeni məqamlar və sülhə təhdid*

**Ermənistan baş naziri Nikol Paşinyanın bir neçə gün əvvəl keçirdiyi mətbuat konfransında bildirdikləri, onun nəinki anti-Azərbaycan, eyni zamanda, anti-Rusiya ritorikasını növbəti dəfə nümayişə çıxarmasından başqa bir şey deyildi. Yazımızda, əsasən, ikinci məsələ üzərində dayanacağıq. Əlbəttə, birinci məqamla bağlı da qeydlər mütləqdir. Çünki hər iki məsələ mahiyyətcə bir-biri ilə bağlıdır.**



Diqqət yetirək, erməni baş nazir Rusiyaya təşəkkür edir ki, ölkə illər ərzində "Zvarnots" hava limanında sərhəd xidmətini həyata keçirib və erməni sərhədçiləri öyrədib. Bu ifadənin uşaq başı aldatmaq xatirinə olduğu hər kəsə yaxşı məlumdur. O da məlumdur ki, rus hərbçilərinin İrəvanın hava limanından çıxarılması, ümumən, Rusiyanın Ermənistandakı hərbi mövcudluğunu aradan qaldırmaq üçün həyata keçirilən ilk gedişdir. Müəyyən müddətdən sonra Paşinyan Türkiyə və İran sərhədindən də rusların çıxarılmasını tələb etsə və bunu erməni hərbçilərin artıq peşəkarlıq vərdişlərinə yiyələnmələri ilə əsaslandırsa, qətiyyən təəccüblənmərik. Yəqin ki, Moskvada da Nikoldan gələcəkdə bu sözləri eşidəcəklərinə hazırlıq gedir.

*(ardı 7-ci səhifədə)*

# "Yuxarı Vəng" Su Elektrik Stansiyasının açılışı




*(əvvəli 1-ci səhifədə)*

Layihə çərçivəsində həyata keçirilən tikinti-quraşdırma işlərində ətraf mühit amilləri nəzərə alınıb. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması və onların çay ekosistemində saxlanılması üçün xüsusi hidrotexniki qurğular layihələndirilərək tikilib.

Bu stansiyanın layihəsi "AzərEnerji" ASC-nin Energetika İnstitutu tərəfindən hazırlanıb. Aparılan işlərdə yerli mütəxəssislərlə yanaşı, Avstriya və İtaliya şirkətlərinin mütəxəssisləri də iştirak ediblər.

Prezident İlham Əliyev "Yuxarı Vəng" Su Elektrik Stansiyasını işə saldı.

Bildirildi ki, "Yuxarı Vəng" SES-də il ərzində 66 milyon kilovat-saatadək yaşıl enerjinin istehsal olunması nəzərdə tutulur. Bu da 15 milyon kubmetr təbii qaza qənaət edilməsi, 27 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir.

Bu layihə BMT-nin iqlim dəyişikliyi ilə mübarizə və yaşıl enerjiyə keçidin sürətləndirilməsi baxımından əhəmiyyətlidir. "Yuxarı Vəng" SES "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində həyata keçirilən əhəmiyyətli təşəbbüslərdən biri olmaqla, Azərbaycanın enerji sektoru ilə bağlı beynəlxalq səviyyədə qəbul edilən ekoloji standartlara uyğun icra edilib və ölkəmizin yaşıl enerji inkişafına sadiqliyini göstərən bir nümunədir.



Stansiya əhalinin məşğulluğu baxımından da mühüm rol oynayır və burada məhz Kəlbəcər rayonunun sakinlərinin işlə təmin olunması nəzərdə tutulur.

Dövlətimizin başçısına və birinci xanıma, həmçinin "Yaşıl dünya naminə həmrəylik ili" və COP29-a hazırlıq çərçivəsində "AzərEnerji" ASC-nin dekarbonizasiya tədbirləri, o cümlədən 2003-2023-cü illərdə ənənəvi generasiya sahəsində əldə edilən səmərəlilik barədə hesabat, "Ansaldo Energia" və "General Elektrik" şirkətləri ilə birgə layihələrin COP29-da təqdimatı, İran İslam Respublikası ilə ortaq layihə olan "Xudafərin", "Qız Qalası" SES layihələri, Şimal-Cənub dəhlizi layihəsinin statusu haqqında məlumat verildi.

Qeyd edək ki, ölkəmizdə ilk dəfə Qarabağ və Şərqi Zəngəzur ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı regiona çevrilib və elektrik enerjisi tələbatı tam həcmdə yaşıl enerji hesabına təmin edilir. Artıq qalan enerji ölkə enerjisistemınə ötürülür, bu da regional enerji müstəqilliyini artırır və ətraf mühitin qorunmasına töhfə verir.

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xudavəng monastırında



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunda Xudavəng monastır kompleksində olublar.**

Mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına və birinci xanıma abidə haqqında məlumat verdi.

Bildirildi ki, dünya əhəmiyyətli memarlıq abidəsi olan Xudavəng məbədi 1992-2020-ci illərdə ermənilərin təcavüzünə məruz qalıb. İşğal dövründə erməni apostol kilsəsinin dəstəyi və Ermənistan dövlətinin vəsaiti hesabına monastırda "bərpa" adı altında qanunsuz işlər görülüb. Arzu xatun, Böyük Həsən kilsələri və kompleksə daxil olan digər tikililər üzərində saxtalaşdırma əlamətləri olan əlavələr edib, abidələrin bir çox hissələrini vandalizmə məruz qoyublar. Torpaqlarımız işğaldan azad ediləndən sonra monastırda qalan erməni keşiş və rahiblər abidələrdəki qədim freskaları xarici mütəxəssislərin iştirakı ilə xüsusi üsulla kəsib götürüb, qanunsuz olaraq Azərbaycan Respublikasının ərazisindən çıxarıblar.

Xudavəng monastır kompleksinin zəng qülləsində yanaşı qoyulmuş bir-birinin üstündə iki dairəvi xonça və həyat ağacı şəklində xaç kompozisiyalı xaçdaşlar və kitabələr də işğal dövründə sökülərək talan edilib.

Qeyd olundu ki, 2020-ci ilin dekabr ayında İrəvanda keçirilən sərgidə Xudavəng monastır kompleksindən oğurlanmış zəng, daş kitabələr, freskalar, xalçalar və Azərbaycan Respublikasına məxsus digər mədəni irs nümunələri qanunsuz olaraq nümayiş etdirilib. Daha sonra qanunsuz olaraq "VII-XIII əsrlərdə erməni xristian kilsələrində freskalar" adı altında İtaliyanın Padua şəhərində açılmış sərgidə Xudavəng monastırının freskaları "erməni ənənəvi incəsənət nümunələri" kimi təqdim olunub. Həmin sərgi İtaliyanın bir neçə şəhərində də təşkil edilib.



# Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolunda görülən işlərlə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunun Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu layihəsi çərçivəsində inşa olunan 4-cü tuneldə və bu yolun 15,2 kilometrlik hissəsində görülən işlərlə tanış olublar.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 100, yeni yolun uzunluğu isə 82 kilometrdir. Yolda artıq bir sıra işlər tamamlanıb.

Məlumat verildi ki, yolun 34,9-35,4 kilometrliyindəki tunelin uzunluğu 500, hərəkət hissəsinin eni isə 8 metrdir.

Layihə üzrə yolboyu ümumi uzunluğu 2968 metr olan 6 qovşaq yenidən qurulub. Ümumi uzunluğu 5600 metr olan 36 bağlantı yolunun tikintisi də icra edilməkdədir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun hazır olan 15,2 kilometrlik hissəsində görülən işlərlə bağlı da məlumat verildi.

Diqqətə çatdırıldı ki, Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun uzunluğu Toğanalı-Kəlbəcər hissəsində 56 kilometr, Kəlbəcər-İstisu hissəsində isə 26 kilometr təşkil edir.



Toğanalı–Kəlbəcər yolunun 13-cü kilometrliyindən Murovdağ silsiləsi başlanır və yüksəklik 1700 metrdən 3260 metrə qədər artır. Bu hissədə dünyanın əz uzun avtomobil tunellərindən biri olacaq Murovdağ tunelinin inşası davam etdirilir. Tunel bir istiqamət üzrə 2 hərəkət zolaqlı və 10 metr enində olacaq. Bundan əlavə 561,2 metr, 626,9 metr, 500 metr və 947,9 metr uzunluğunda 4 tunelin tikintisi də həyata keçirilir. Uzunluğu 23,4 kilometr olacaq Murovdağ tunelinin daxilində sağ və sol hissələri birləşdirən bağlantı yolların inşası istiqamətində işlər davam etdirilir.

Ümumilikdə Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun tikintisinin 67,5 faizi tamamlanıb.

Qeyd edək ki, Toğanalı–Kəlbəcər–İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə işğaldan azad edilmiş Kəlbəcər rayonunun ərazisindən keçir. Beləliklə, bu yol bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişi təmin edəcək.

Sonra dövlətimizin başçısına və xanımına Kəlbəcər şəhərində daxili yolların tikintisi layihəsi də təqdim edildi.

# Dövlət başçısı Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin təməlini qoyub.**

Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Bəşir Hacıyev dövlətimizin başçısına yaşayış kompleksi barədə məlumat verdi.

Bildirildi ki, kompleks 1,76 hektar ərazidə layihələndirilib. Kəlbəcər şəhərində salınacaq ikinci yaşayış kompleksi şəhərin Baş planına əsasən çoxfunksiyalı zonada yerləşir.

Kompleksdə 3 və 5 mərtəbəli 8 yaşayış binasının inşası nəzərdə tutulur. Mənzillərin 56-sı ikiotaqlı, 56-sı üçotaqlı, 48-i isə dördotaqlı olacaq. Burada ümumilikdə 160 ailənin yaşaması planlaşdırılır.

Qeyd olundu ki, bu yaşayış kompleksində əhalinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında yaşıl enerjidən istifadə olunacaq.

Prezident İlham Əliyev yaşayış kompleksinin təməlini qoydu.



# Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və modul tipli məktəbin layihəsi ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər Şəhər Təhsil Kompleksində aparılan işlər və bu il açılması planlaşdırılan modul tipli məktəbin layihəsi ilə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verildi.

Bildirildi ki, ümumi sahəsi 2,2 hektardan çox olan kompleksin ərazisində 80 yerlik uşaq bağçası, peşə emalatxanaları yaradılacaq, STEAM zona, məktəbdənkənar hazırlıq məkanı və digər zəruri obyektlər təşkil ediləcək.

Kompleksin ərazisində, həmçinin 528 şagird yerlik məktəb inşa olunur. Məktəbdə kitabxana, yeməkxana, akt zalı, yataqxana, idman zalı və digər zəruri otaqlar yaradılacaq.

Modul tipli məktəbin layihəsi ilə tanışlıq zamanı qeyd edildi ki, ümumi sahəsi 420 kvadratmetr olacaq binada 2 inzibati otaq və 9 sinif otağı yerləşəcək.



Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə təhsilin inkişafı ilə bağlı tədbirlər xüsusi əhəmiyyətə malikdir. Əlbəttə, Kəlbəcərdə ən müasir standartlara uyğun inşa olunan bu təhsil kompleksi də işğaldan azad edilmiş ərazilərin bərpası prosesində təhsil infrastrukturunun qurulmasına xüsusi diqqət yetirildiyinin əyani təzahürüdür. Xatırladaq ki, Kəlbəcər rayonunda ilk məktəb 1924-cü ildə fəaliyyətə başlayıb.

Kəlbəcər işğal edilməzdən əvvəl rayonda 96 ümumtəhsil məktəbi, o cümlədən 46 tam orta, 42 ümumi orta, 8 ibtidai məktəb fəaliyyət göstərirdi. Bunlardan əlavə rayonda bir texniki peşə məktəbi, iki əyani-qiyabi məktəb, səkkiz məktəbdənkənar və dörd məktəbəqədər təhsil müəssisəsi də var idi. Rayonun təhsil infrastrukturunun qurulması istiqamətində işlər yüksək keyfiyyətlə davam etdirilir.

# Kəlbəcər şəhərində inzibati binanın təməli qoyulub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Kəlbəcər şəhərində inzibati binanın təməlini qoyub.**

Dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, inzibati binanın inşası üçün 2,4 hektardan çox ərazi nəzərdə tutulub. Bu ərazi Kəlbəcərin ictimai mərkəzi ilə şəhər parkının arasında yerləşir. İnzibati binanın yerləşdiyi ərazinin şimal hissəsi pilləli landşaft elementləri və şəhər parkının relyefi ilə birləşir. Ümumilikdə Baş plan üzrə şəhərin inzibati mərkəzində 2 inzibati binanın inşası nəzərdə tutulub. Hər iki bina müasir üslubda layihələndirilib. Tikinti işlərinə 2025-ci ildə başlanılması planlaşdırılır.

Dövlətimizin başçısı inzibati binanın təməlini qoydu.

# Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər şəhərində 524 ailəlik yaşayış kompleksinin tikintisi ilə tanış olublar.**

Dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı ətraflı məlumat verildi.

Bildirildi ki, bu yaşayış kompleksinin ümumi sahəsi 19,5 hektardır.

Birinci mərhələdə buraya 201 ailə köçürüləcək. Bunun üçün kompleksdə dördmərtəbəli 6 bina tikilib. Binaların hər birində 27 mənzil mövcuddur. Mənzillərin 54-ü ikiotaqlı, 72-si üçotaqlı və 36-sı dördotaqlıdır.

Dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində hazır mənzillərə baxdılar.

Kompleksdə, həmçinin "townhouse" tipli ikimərtəbəli 39 ev də inşa olunub. Bu evlərin hər biri üçotaqlıdır.

Diqqətə çatdırıldı ki, ikinci mərhələdə bu kompleksə 323 ailənin köçürülməsi planlaşdırılır. Bunun üçün isə müxtəlif tipli dördmərtəbəli 16 çoxmənzilli yaşayış binası, "townhouse" tipli ikimərtəbəli 57 ev inşa olunacaq.

Kompleksdə sakinlərin rahat yaşayışı üçün hər cür şərait yaradılır. Ərazidə park, istirahət guşələri, sosial-məişət obyektləri, avtodayanacaqlar, velosiped yolları, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

# "İstisu" mineral su zavodunun açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunda "İstisu" mineral su zavodunun açılışında iştirak ediblər.**



Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına və birinci xanıma zavod barədə məlumat verdi.

Bildirildi ki, "İstisu" mineral su zavodu uzun illər Kəlbəcərin müstəsna keyfiyyəti və sağlamlığa faydaları ilə tanınan termal su yatağından çıxan eyniadlı suyunu 30 illik müddətdən sonra yenidən istehlakçılara təqdim edir.

Qeyd edək ki, 1976-cı ildən etibarən Kəlbəcər rayonunda "İstisu" mineral suyunun istehsalına başlanılıb. Bununla da nadir və faydalı mineral tərkibə malik "İstisu" təbii mineral suyu geniş coğrafiyada şöhrət tapıb.

Prezident İlham Əliyev zavodu işə saldı.

Mənbəyini Azərbaycanın Kəlbəcər rayonunun mənzərəli dağlıq bölgəsində, dəniz səviyyəsindən 1600 metrdən çox yüksəklikdə yerləşən termal su yataqlarından götürən və təbii halda 60°C-dən yuxarı temperaturda çıxan "İstisu" mineral suyu regionun minerallarla zəngin nadir suyu kimi xarakterizə olunur. Lakin torpaqlarımızın Ermənistan tərəfindən işğalı ilə əlaqədar 30 il ərzində "İstisu" təbii mineral suyunun istehsalı dayanıb.

Təməli 2022-ci il iyunun 26-da Prezident İlham Əliyev tərəfindən qoyulan "İstisu" mineral su zavodunda işlər 2024-cü ildə tam başa çatdırılıb.

Dövlətimizin başçısı və birinci xanım zavodda istehsal prosesi ilə tanış oldular.

Bildirilib ki, "İstisu" mineral su zavodu müasir avtomatlaşdırılmış sudoldurma xətləri və robotlaşdırılmış anbar idarəetmə sistemləri ilə təchiz edilib. İstehsal xətləri Almaniyanın "Krones" şirkəti tərəfindən təchiz edilib və quraşdırılıb. Ən son texnologiyaların tətbiqi nəticəsində zavodda yüksəkkeyfiyyətli mineral su istehsal edilməklə yanaşı, suyun təbii xüsusiyyətlərini qoruyub saxlamaq da mümkün olub. "İstisu" zavodunun illik istehsal gücü 100 milyon şüşə butulkadan artıqdır.

Zavodda istehsal olunan su həm keyfiyyəti, həm də müasir standartlara cavab verməsi ilə seçilir. Beynəlxalq təsnifat meyarlarına görə, Kəlbəcər rayonunda yerləşən təbii mineral su "İstisu" – natrium bikarbonat və sulfatla zəngin mineral su kimi təsnif edilir. Tərkibində olan kalsium, maqnezium, bikarbonat, sulfat və digər faydalı elementlər orqanizmə müsbət təsir göstərir.

"İstisu" təbii mineral suyu, eyni zamanda, yerli və beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verir. Belə ki, mineral su AZS 216–2006, İSO 9001:2015 və İSO 22000:2018 standartlarına uyğun olaraq sertifikatlaşdırılıb.

İkinövbəli iş rejimində fəaliyyət göstərəcək müəssisədə təxminən 100 nəfər işlə təmin ediləcək. İşçilərin əksəriyyəti Kəlbəcər və Laçın rayonlarının sakinləridir.

Qeyd edək ki, "İstisu" mineral su zavodu ətraf mühitin qorunmasına da töhfə verir. Mineral su istehsalında əsas səylər uzunmüddətli uğur və rifahın əsasını təşkil edən resurslardan davamlı istifadəyə, ekoloji cəhətdən təmiz istehsal prosesinə və təbiətin mühafizəsinə yönəlib. Bu gün zavodun əsas məqsədi ətraf mühitə zərər vermədən yüksəkkeyfiyyətli məhsullar istehsal etməkdir. Bu məqsədlə zavodda tullantıların miqdarını minimuma endirməyə, həmçinin elektrik enerjisi resurslarından səmərəli istifadə etməyə imkan verən müasir texnologiyalar tətbiq olunur.

# Kəlbəcərdə "Zar" KSES-in və Göygöl rayonunda "Toğanalı" KSES-in açılışı




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Kəlbəcər rayonunda "AzərEnerji" ASC-nin 4,3 MVt gücündə "Zar" Kiçik Su Elektrik Stansiyasının (KSES-in) açılışında iştirak edib və SCADA sistemi vasitəsilə Göygöl rayonunda yeni tikilən 4,1 MVt gücündə "Toğanalı" KSES-in açılışını edib.**

Dövlətimizin başçısına görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, Kiçik Qafqaz dağ silsiləsindəki bulaqlar, əriti suları da daxil olmaqla mənbəyi Azərbaycan ərazisində formalaşan çaylar üzərində yaşıl enerji istehsal edəcək su elektrik stansiyalarının yaradılması prosesi sistemli şəkildə davam edir.

Cari ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunduğu və COP29-a evsahibliyi edəcək Azərbaycanın Kəlbəcər rayonunda "AzərEnerji" ASC tərəfindən 4,3 meqavat gücündə "Zar", Göygöl rayonunda isə 4,1 meqavat gücündə "Toğanalı" Kiçik Su Elektrik stansiyaları cəmi bir il ərzində tikilib. İnnovativ mühəndislik işi sayılan bu stansiyaların maşın zallarında Avropa istehsalı olan turbin, generator və məsafədən idarəetmə üçün rəqəmsal avadanlıqlar quraşdırılıb. Stansiyalar 24 damarlı fiber-optik kabel xətləri ilə ölkənin mərkəzləşmiş optik kabel şəbəkəsinə və SCADA sisteminə inteqrasiya olunub.

Bu elektrik stansiyalarını su ilə təchiz etmək üçün "AzərEnerji" tərəfindən Zar və Kürəkçay çaylarının üzərində ekoloji normalar daxilində baş suqəbuledici qurğular inşa edilib. Bu məqsədlə çaylarda yaşayan canlıların, ümumilikdə flora və faunanın qorunmasını təmin etmək üçün xüsusi hidrotexniki qurğular tikilib. Ümumilikdə hər iki stansiya üçün çətin relyefdə 14 min metr derivasiya boruları çəkilib və çay ekosisteminin qorunmasına xüsusi önəm verilib.

"Zar" və "Toğanalı" KSES-lərdə, ümumilikdə, 25 milyon kilovat-saatadək yaşıl enerjinin istehsal olunması nəzərdə tutulur ki, bu da 5,5 milyon kubmetr təbii qaza qənaət edilməsi, 10 min tondan çox karbon emissiyasının qarşısının alınması deməkdir.

Sonra "Zar" və "Toğanalı" KSES-lərin tikintisindən və yaradılan şəraitdən bəhs edən videoçarx nümayiş olundu.

Prezident İlham Əliyev stansiyaları işə saldı.

Qeyd edək ki, "Zar" və "Toğanalı" stansiyalarının istismara verilməsi enerjisistemdə yaşıl enerjinin davamlı artırılması missiyasına töhfə olmaqla yanaşı, ekoloji davamlılıq məqsədinə çatma yolunda mühüm əhəmiyyətə malikdir.

Qarabağ və Şərqi Zəngəzur bölgələrinin ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı regionlara çevrilməsi, yaşıl enerji istehsalının tam şəkildə təmin edilməsi və artıq qalan enerjinin ölkə enerjisisteminə ötürülməsi Azərbaycanın regional enerji müstəqilliyini gücləndirir və ətraf mühitin qorunmasına müsbət təsir göstərir. Bu, həm də ölkənin enerji istehsalında dayanıqlılıq və ekoloji davamlılıq məqsədinə çatma yolunda mühüm bir addımdır.

Eyni zamanda, diqqətə çatdırıldı ki, Prezident İlham Əliyevin işğaldan azad edilən əraziləri yaşıl enerji zonasına çevirmək, regionun hidroenerji potensialından səmərəli istifadə etmək barədə tapşırıqlarına əsasən "AzərEnerji" ASC tərəfindən ümumi gücü 37,5 MVt olan 6 kiçik su elektrik stansiyasının tikintisi üzrə işlərə başlanılıb. Bu su elektrik stansiyalarının 2025-ci ilin birinci yarısında istismara verilməsi nəzərdə tutulur.

**(ardı 4-cü səhifədə)**

# Kəlbəcərdə “Zar” KSES-in və Göygöl rayonunda “Toğanalı” KSES-in açılışı

(əvvəli 3-cü səhifədə)



Həmin stansiyalarda, ümumilikdə, 110 milyon kVts-dan çox elektrik enerjisi istehsal ediləcək ki, nəticədə 24 milyon kubmetrdən çox təbii qaza qənaət olunacaq, həmçinin 44 min tondan çox karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

Bildirildi ki, Qarabağ və Şərqi Zəngəzurda indiyədək ümumi gücü 270 MVt olan 32 su elektrik stansiyası istismara verilib və bu günədək 492 milyon kilovat-saat sıfır emissiyalı elektrik enerjisi istehsal edilib. Bununla da 110 milyon kubmetr təbii qaza qənaət olunub, 200 min ton karbon emissiyasının atmosferə atılmasının qarşısı alınıb.

Qeyd edək ki, regiondakı SES-lərin qoyuluş gücü 500 MVt-a, illik istehsal həcmi isə 1,5-1,8 milyard kilovat-saata çatacağı, bununla da 350–400 milyon kubmetr təbii qaza qənaət edilməsi, 650–750 min ton həcmində karbon dioksid emissiyasının azalması proqnozlaşdırılır. Müqayisə üçün bildirək ki, Azərbaycanın digər regionlarında SES-lərin illik istehsalı ortalama 1,2 milyard kilovat-saat təşkil edirsə, Qarabağ və Şərqi Zəngəzurda bu həcm 50 faiz daha çoxdur.

# “İstisu” Müalicə-İstirahət Kompleksində tikinti işləri ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 2-də Kəlbəcər rayonunda “İstisu” Müalicə-İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olublar.**



Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, 1927-ci ildə fəaliyyətə başlayan bu sanatoriya keçmiş Azərbaycan SSR-də ittifaq əhəmiyyətli ikinci böyük kurort hesab edilirdi. Kompleksin ərazisində üç yataq korpusu, bir müalicəvi vanna xidməti binası, bir poliklinika korpusu fəaliyyət göstərirdi. Sovet dönəmində bu kurort-sanatoriya kompleksi ildə 50 min nəfəri qəbul etmək imkanına malik olub. Buraya əsasən həzm sistemi xəstəliklərinin müalicəsi üçün müraciətlər edilirdi.

Bərpa edilən “İstisu” Müalicə-İstirahət Kompleksinin ümumi sahəsi 32 min kvadratmetr olacaq. Kompleksdə 145 nömrə, eləcə də 10 kottec yaradılacaq.

Kompleksdəki SPA Mərkəzində termal hamam, müalicəvi vanna, həkim otağı, o cümlədən, müxtəlif müalicəvi hovuzlar, prosedur otaqları, təzyiqli su terapiyası, masaj, buxar, duz otaqları, istirahət zonaları, gözəllik salonu mövcud olacaq. Burada müxtəlif iaşə obyektləri – restoranlar, uşaq əyləncə mərkəzi, oyun otağı, sportskafe, karaoke otağı, kafeteriya da qonaqlara xidmət göstərəcək.

“Aşağı İstisu” mənbəyindən alman mütəxəssislər tərəfindən nümunələr götürülüb, suyun analizi və testi həyata keçirilib. Aparılan analizlər və balneoloji rəylərə əsasən İstisu təbii mineral suyu fizioloji, metabolik və müalicəvi təsirlərə malikdir. Bu isə mədə-bağırsaq traktının funksional pozğunluğunun müalicəsi və həzm funksiyasının stimullaşdırılması, yaşlılarda natrium və maye çatışmazlığının, ortostatik tənzimləmə pozğunluğunun, sidik yollarında infeksiyaların müalicəsi, kalsium oksalat, sistin və sidik turşusu daşlarının profilaktikası və metafilaksisi, uşaqlarda və yeniyetmələrdə diş kariyesinin profilaktikası, eləcə də böyüklər üçün dəstəkləyici təsir baxımından çox faydalıdır.

# Vyetnam Sosialist Respublikasının Prezidenti Zati-aliləri cənab To Lama

**Hörmətli cənab Prezident,**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost Vyetnam xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlıq əlaqələrinin xoş ənənələri mövcuddur. Dövlətlərarası münasibətlərimizin yüksələn xətt üzrə inkişaf edərək hazırkı səviyyəyə çatması məmnunluq doğurur. Beynəlxalq təşkilatlar çərçivəsində uğurlu birgə fəaliyyətimiz və qarşılıqlı dəstəyimiz də bizi sevindirir.

Siyasi münasibətlərimizin yüksək səviyyəsi və fəal dialoqumuz bütün sahələrdə, xüsusilə də iqtisadi-ticari, mədəni-humanitar, təhsil və digər sahələrdə səmərəli əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı zəmin yaradır.

İnanıram ki, sağlam təməllər üzərində qurulmuş, qarşılıqlı inam və etimada əsaslanan Azərbaycan–Vyetnam dostluq əlaqələrinin daha da inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost Vyetnam xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 avqust 2024-cü il**

# “İstisu” yarımstansiyası istifadəyə verilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Kəlbəcər rayonunun İstisu qəsəbəsində “Azərişıq” ASC-nin 110/35 kV-luq “İstisu” yarımstansiyasının açılışında iştirak edib.**



“Azərişıq” Açıq Səhmdar Cəmiyyətinin sədri Vüqar Əhmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər rayonunda təməli Prezident İlham Əliyev tərəfindən qoyulan “İstisu” sanatoriyasının və “İstisu” mineral su zavodunun elektrik təchizatı məqsədilə 110/35 kV-luq iki ədəd 40 MVA gücündə “İstisu” yarımstansiyası inşa edilib. Bu yarımstansiya 110/35 kV-luq “Kəlbəcər” yarımstansiyasından çəkilən 110 kV-luq ikidövrəli hava xətti vasitəsilə elektrik enerjisi ilə təmin edilir. Yeni inşa edilən yarımstansiyanın 110/35 kV-luq “Qorçu” və “Laçın” yarımstansiyaları ilə əlaqələndirilməsi nəticəsində 110 kV-luq dairəvi elektrik təchizatı sxeminin yaradılmasına nail olunacaq.

Yarımstansiyada 110 kV-luq 40 MVA gücündə iki transformator, müasir standartlara cavab verən 110 və 35 kV-luq eleqaz açarlı yuvalar quraşdırılıb. Yarımstansiya avtomatlaşdırılmış SCADA dispetçer sisteminə qoşularaq, məsafədən idarəolunma telekommunikasiya qurğuları, müasir elektron tipli rele mühafizəsi və avtomatika sistemi ilə təchiz edilib.

Prezident İlham Əliyev yarımstansiyanı işə saldı.

Qeyd edək ki, gələcəkdə yarımstansiyadan 35 kV-luq özüdaşıyan izolyasiyalı naqillərdən ibarət xətlərin çəkilməsi ilə İstisu, Alagöllər, Zəylik, Zar və s. yaşayış məntəqələrinin elektrik təchizatının dayanıqlığı təmin olunacaq. Yarımstansiya bərpaolunan enerji mənbələrinin inteqrasiyası üçün müasir cihaz və avadanlıqlarla təchiz edilib. Burada növbətçi heyət üçün müvafiq otaqlar, idarəetmə və mühafizə otaqları inşa edilib, lazımi iş şəraiti yaradılıb. Yarımstansiyanın ətrafı abadlaşdırılıb, ərazidə ağaclar əkilib, suvarma sistemi quraşdırılıb.

# İstisu qəsəbəsinin təməli qoyulub





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 2-də Kəlbəcər rayonunun İstisu qəsəbəsinin təməlini qoyub.**

Dövlətimizin başçısına qəsəbə barədə məlumat verildi.

Bildirildi ki, İstisu qəsəbəsi Kəlbəcərin qərb hissəsində yerləşir. Ümumi sahəsi 63,1 hektar olan qəsəbənin layihələndirilmə işləri mərhələli şəkildə aparılacaq. Baş plana əsasən, gələcəkdə burada 159 fərdi ev, “townhouse” tipli 71 ev (142 mənzil) və 180 mənzildən ibarət 10 bina tikiləcək.

Birinci mərhələdə salınacaq ərazinin sahəsi 39,2 hektar təşkil edir. Bu mərhələdə 159 fərdi evin inşası nəzərdə tutulur. Burada iki, üç, dörd və beşotaqlı fərdi evlər tikiləcək. Qəsəbəyə birinci növbədə 159 ailə köçürüləcək.

İstisu qəsəbəsində 352 şagird yerlik məktəb, 100 yerlik uşaq bağçası, inzibati bina, klub-icma mərkəzi, idman sağlamlıq mərkəzi, tibb məntəqəsi, bayraq meydanı, idman meydançası və digər zəruri obyektlər yaradılacaq.

Qeyd edək ki, tarixən İstisu qəsəbəsində əhalinin əsas məşğuliyyəti üzümçülük, taxılçılıq, heyvandarlıq və baramaçılıq olub. Müasir səviyyədə qurulacaq qəsəbənin perspektivdə rayonun yerli əhəmiyyətli mərkəzlərindən biri kimi inkişafı əsas məqsədlərdəndir.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kəlbəcər rayon sakinləri ilə görüşdülər.

**AZƏRTAC**

# Əli Əsədov Serbiyanın xarici işlər naziri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 2-də Serbiya Respublikasının Xarici İşlər naziri Marko Curiçlə görüşüb.**

Görüşdə yüksək inkişaf dinamikası ilə seçilən Azərbaycan–Serbiya əlaqələrinin dostluq və strateji tərəfdaşlıq xarakteri daşıdığı məmnunluqla qeyd olunub.

İkitərəfli münasibətlərin möhkəmləndirilməsi və bugünkü yüksək səviyyəyə çatmasında dövlət başçılarının rolu xüsusi vurğulanıb.

Azərbaycan və Serbiyanın beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə ərazi bütövlüyü və suverenlik məsələlərində qarşılıqlı dəstəyi yüksək qiymətləndirilib.

İki ölkə arasında bir çox istiqamətlərdə, xüsusilə ticarət-iqtisadi, investisiya, neft-qaz, sənaye sahələrində səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilib.

Görüşdə Azərbaycan ilə Serbiya arasında ticarət dövriyyəsinin və qarşılıqlı investisiyaların artırılması, nəqliyyat-tranzit, bərpaolunan enerji, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

**XQ**

# Beynəlxalq müşahidəçilər parlament seçkilərinin demokratik şəraitdə keçirildiyini açıqladılar

### *İqor Korotçenko:* Azərbaycan siyasi sisteminin mükəmməlliyini və sabitliyini bir daha nümayiş etdirdi

"Sentyabrın 1-də Azərbaycanda keçirilən növbədənkənar parlament seçkiləri ölkənin siyasi sisteminin sabitliyini bir daha nümayiş etdirdi…" "Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu dünən keçirilən mətbuat konfransında rusiyalı müşahidəçi, Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko dedi. O bildirdi ki, Bakı və onun ətraf rayonlarında 15-ə yaxın seçki məntəqəsində olublar. Rusiyalı müşahidəçilər qrupu seçki prosesinin dəqiq təşkilinin, seçki komissiyası üzvlərinin yüksək hazırlıq səviyyəsinin, dürüst, ədalətli, legitim və dünyada mövcud seçki texnologiyaları normalarının bütün meyarlarına cavab verən səsvermə prosesinin qüsursuz təşkilinin şahidi olub. Bu baxımdan Azərbaycan öz siyasi sisteminin mükəmməlliyini və sabitliyini bir daha nümayiş etdirdi.

İ.Korotçenko dedi: "Bir çox dövlətlərin sarsıldığı indiki təlatümlü dünyada Azərbaycan sabitlik və firavanlıq adasıdır. Bunu bir daha təkrar edirəm, mövcud çağırışlara cavab baxımından və Prezidentin rəhbərliyi altında xalqın irəliyə doğru addımlamasının əsasını Azərbaycanın siyasi sistemi təşkil edir".

### Malayziya Parlamenti Senatı Sədrinin müavini: Azərbaycanda demokratik seçkilərin necə keçirildiyinin şahidi olduq

Məntəqələrdə vətəndaşların seçiminə hər hansı müdaxilə aşkarlanmadı, hər şey demokratik şəraitdə keçdi…

"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu Malayziya Parlamenti Senatı Sədrinin müavini Nur Jazlan bin Mohamed növbədənkənar parlament seçkilərinin yekunları ilə bağlı sentyabrın 2-də keçirilən mətbuat konfransında dedi.

O bildirdi ki, bu, mənim Azərbaycanda beynəlxalq müşahidəçi kimi iştirak etdiyim ikinci seçkidir. Bundan öncə fevral ayında Azərbaycanda keçirilən prezident seçkilərində də iştirak etmişdim. Ötən dəfəki kimi, bu dəfə də seçkilərin yüksək səviyyədə keçirildiyini şahidi olduq. Biz Azərbaycanda demokratik seçkilərin necə keçirildiyini gördük.

Malayziyalı müşahidəçi əlavə etdi ki, Səbail, Nəsimi və Suraxanıda yerləşən seçki məntəqələrində müşahidə apardılar.

### İƏT PA nümayəndəsi: Seçki prosesi şəffaf və açıq keçib

Azərbaycanda seçki prosesi olduqca şəffaf və açıq keçib… Bu barədə "Seçki 2024" Müstəqil Media Mərkəzində dünən keçirilən mətbuat konfransında İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (İƏT PA) nümayəndəsi, Pakistan Milli Assambleyasının üzvü Malik Saif ul-Maluk Xoxar məlumat verdi.

Onun sözlərinə görə, son seçkilər demokratik dəyərlərə sadiqlik nümayiş etdirilib: "Vətəndaşlar kifayət qədər fəal şəkildə səsvermədə iştirak etdi. Biz bunu müsbət addım kimi qiymətləndiririk. Azərbaycan xalqını seçkilərin uğurla baş tutması münasibətilə təbrik edirəm. Əminik ki, bu seçkilər ölkədəki inkişafa öz töhfəsini verəcək".

### GUAM PA-nın Baş katibi: Parlament seçkilərində nəzərəçarpan nöqsanlar aşkar edilmədi

"Seçki 2024" Müstəqil Media Mərkəzi xəbər verir ki, bunu Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilatın (GUAM) Parlament Assambleyasının Baş katibi Altay Əfəndiyev növbədənkənar parlament seçkilərinin yekunları ilə bağlı sentyabrın 2-də keçirilən mətbuat konfransında bildirdi.

Onun sözlərinə görə, GUAM müşahidəçiləri Bakı şəhərinin Yasamal, Səbail və Nərimanov rayonlarında müxtəlif məntəqələrdə olublar: "Müşahidələrimizə görə, parlament seçkiləri milli qanunvericiliyə uyğun keçirilib. Məntəqələrdə həm seçicilər, həm də komissiya üzvləri üçün lazımi şərait yaradılmışdı. Müşahidələrimiz göstərir ki, hansısa əhəmiyyətli dərəcədə nəzərəçarpan uyğunsuzluq aşkar edilməyib. Çox kiçik şərhlər barədə komissiya üzvlərinə qeydlər verilib, amma bunun seçki prosesinə heç bir təsiri yoxdur".

A.Əfəndiyev bildirib ki, seçicilər yetərincə məlumatlandırılıb: "Səsvermədə iştirak kifayət qədər normal, bəzi məntəqələrdə yüksək idi".

GUAM rəsmisi vurğulayıb ki, Azərbaycanın illər sonra bütün ərazisində keçirdiyi parlament seçkiləri azad və ədalətli adlandırıla bilər.

### TDT baş katibinin müavini: Missiya öz fəaliyyətini beynəlxalq standartlara uyğun aparıb

TDT missiyası Bakı şəhərində, o cümlədən Abşeron və Xızı rayonlarında müşahidələr apardı. Missiya öz fəaliyyətini beynəlxalq standartlara uyğun aparıb.

Bunu Azərbaycanda növbədənkənar parlament seçkilərini izləyən Türk Dövlətləri Təşkilatı (TDT) baş katibinin müavini Ömer Kocaman "Seçki 2024" Müstəqil Media Mərkəzində keçirilən mətbuat konfransında səsləndirdi.

Qeyd etdi ki, missiya Yeni Azərbaycan Partiyası və Demokratik İslahatlar Partiyasının nümayəndələri ilə görüşüb, onların seçki prosesinə hazırlığı ilə tanış olub: "Həmçinin, Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovla da görüşmüş, ətraflı məlumat almışdıq. Missiya Xarici İşlər Nazirliyində də olub, seçki prosesini müzakirə edib".

Ö.Kocaman əlavə etdi ki, müşahidə aparılan məntəqələr standartlara uyğun olaraq vaxtında açılıb: "Ümumilikdə, 36 məntəqədə olduq. İnsanların azad iradələrini ortaya qoymaları üçün bütün şərait yaradılmışdı. Hansısa neqativ hal qeydə alınmadı".

### Rusiya Dövlət Dumasının deputatı: Azərbaycanda güclü seçki kampaniyası aparılıb

Bu seçkilər Azərbaycanda baş verən ən mühüm siyasi hadisələrdən biri idi. Bu hadisə bizə Azərbaycanın gələcəkdə hansı inkişaf vektorunu seçəcəyini göstərəcək…

Rusiya Dövlət Dumasının deputatı Aleksandr Terentyev Azərbaycanda keçirilən növbədənkənar parlament seçkilərini şərh edərkən bunları dedi.

O, açıqlamasında Rusiya Azərbaycanın müstəqil siyasət yürütməsindən məmnunluğunu ifadə etdi: "Azərbaycanın öz xalqının mənafeyi naminə suveren və müstəqil siyasət aparması bizi valeh edir. Bir çox ölkələr seçkilərdə kənar təsirlərlə üzləşirlər. Şadıq ki, Azərbaycanda güclü seçki kampaniyası aparılıb, bu, Azərbaycan xalqının ölkə hakimiyyətinin seçdiyi siyasi kursdan razı qaldığını göstərir… Seçki məntəqələrində biz çox demokratik ab-havanın şahidi olduq".

Deputat, həmçinin əlavə etdi ki, Azərbaycanla onun təmsil olunduğu Tatarıstan Respublikasını möhkəm bağlar bağlayır.
















### ŞƏT nümayəndə heyətinin rəhbəri: Beynəlxalq müşahidəçilərin dəvət olunması seçkilərin açıq və şəffaf keçirildiyinin göstəricisidir

Növbədənkənar parlament seçkilərini müşahidə etdik. Beynəlxalq müşahidəçilərin dəvət olunmasının özü seçkilərin açıq və şəffaf şəkildə keçirildiyinin göstəricisidir…

Bu barədə Şanxay Əməkdaşlıq Təşkilatının nümayəndə heyətinin rəhbəri, ŞƏT baş katibin müavini Nuran Niyazəliyev mətbuat konfransında bildirdi.

"Bizim missiya 16 nəfərdən ibarət idi. Missiyamızın 20 ildən çoxdur ki, seçkiləri müşahidə etmək təcrübəsi var. Azərbaycan tərəfindən dəvət gələn kimi üzv dövlətlər tərəfindən müşahidə missiyası təsdiqləndi. Missiyamız seçki prosesində bir çox görüşlər keçirib.

Məntəqələrə baş çəkdiyimiz zaman bütün lazımi sənədlər təqdim olundu, bizim fəaliyyətimiz üçün hər cür şərait yaradıldı. Azərbaycan bizim monitorinq missiyamız üçün bütün lazımi şəraiti yaratdı. Bu da seçkilərin açıq, şəffaf, demokratik şəkildə keçirildiyini göstərir".

### Şamil Ayrım: Azərbaycanda keçirilən parlament seçkiləri xalqın iradəsini göstərdi

Azərbaycanda keçirilən parlament seçkiləri ilə bağlı keçirilən konfransda danışan Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım bunları dedi.

Rəhbərlik etdiyim müşahidə missiyası Bakı ilə yanaşı, Sumqayıtdakı seçki məntəqələrində də oldu. Məntəqələr beynəlxalq standartlara uyğun yaradılmışdı. İnsanlar rahat şəkildə gəlib səs verirdilər. Bu, bizi sevindirdi.

Ümid edirik ki, yeni parlament regiona sülhün gəlməsinə kömək edəcək və yaxın zamanda Azərbaycanla Ermənistan arasında sülh sazişi imzalanacaq. Yeni seçilmiş deputatlar, şübhəsiz ki, Azərbaycanın xarici siyasətinə töhfə verəcəklər.

Ş.Ayrım sonda bildirdi ki, İnşallah, növbəti seçkilərə qədər Qarabağda vəziyyət daha yaxşı olacaq. Daha çox insan öz tarixi torpaqlarında səs verəcəkdir.

### AIPA üzvü: Səslərin sayılması beynəlxalq standartlara uyğun aparılıb

Parlament seçkilərində səslərin sayılması beynəlxalq standartlara uyğun aparılıb…

Mətbuat konfransında bu barədə ASEAN Parlament Assambleyasının (AIPA) üzvü Mousine Sos məlumat verdi.

Onun sözlərinə görə, qurumun müşahidəçiləri bütün səsvermə məntəqələrində kifayət qədər avadanlıq və material, o cümlədən, seçici siyahıları, bülletenlər, mürəkkəblər olduğunu və qutuların ilk səsverməyə gələn insanların iştirakı ilə açıldığını və təsdiqləndiyini müşayiət ediblər.

M.Sos Azərbaycan hökumətinin təhlükəsizlik, ümumiyyətlə, ictimai asayişin qorunması sahəsində gördüyü işləri yüksək qiymətləndirdiyini bildirdi: "Azərbaycanın seçki sistemi şəffafdır, müşahidəçilərə səsvermə prosesini izləməyə imkan verilir və bütün müvafiq məlumatların əlçatanlığı təmin edilir. Səslərin sayılması beynəlxalq standartlara uyğun aparılıb".

### İtaliyalı deputat: Parlament seçkilərini şəffaf və demokratik adlandırmaq olar

İtaliya Deputatlar Palatasının üzvü Naike Gruppioni növbədənkənar parlament seçkilərinin yekunları ilə bağlı sentyabrın 2-də keçirilən mətbuat konfransında dedi: "Azərbaycan növbədənkənar parlament seçkilərinə ciddi hazırlaşıb. Seçkilərdə gənclərin və qadınların fəal iştirakı da diqqətimizi cəlb edib.

Bundan əlavə, insanlarda gələcəyi ələ verərək qurmaq inamı məni çox sevindirdi. Bu, hökumətin vətəndaşlar üçün yaratdığı siyasi sferanın əlçatanlığıdır. Seçki prosesinin yüksək səviyyədə təşkili, şəffaflığından məmnun qaldım. Xüsusilə də seçki məntəqələrində qadınların olması faktı məni sevindirdi. Məntəqələrdə "exit-poll"ların təşkili göstərir ki, seçkini keçirən qurumlar prosesin şəffaf keçirilməsinə çalışıblar.

Düşünürəm ki, seçicilərə yaradılan imkanlar müsbət dəyərləndirilməlidir. Seçki məntəqələrində seçkilərin tam təşkili prosesin sırf sistemli şəkildə həyata keçirilməsindən xəbər verir. Buna görə də bu seçkiləri şəffaf və demokratik adlandırmaq olar".

### APA-nın baş katibi: Bu seçkilər Azərbaycanda seçki prosesində çox böyük irəliləyiş olduğunu nümayiş etdirdi

Asiya Parlament Assambleyasının (APA) baş katibi Məhəmməd Rza Məcidi sentyabrın 2-də növbədənkənar parlament seçkilərinin yekunları ilə bağlı keçirilən mətbuat konfransında dedi:

– Beynəlxalq müşahidəçilər üçün lazımi şərait yaradılmışdı. Biz çox məmnunuq ki, APA nümayəndələri olaraq seçkilərdə iştirak etdik. Eyni zamanda, Mərkəzi Seçki Komissiyasına (MSK) təşəkkür edirəm ki, beynəlxalq müşahidəçi kimi bizə lazımi şərait yaradılmışdı. Məqsədimiz seçkilərin qərəzsiz, demokratik keçirilməsini göstərmək idi. Seçki məntəqələrində seçici fəallığı var idi. MSK şəffaflığı təmin etmək üçün hər cür şərait yaratmışdı. Azərbaycanda keçirilən bu parlament seçkiləri seçki prosesində çox böyük irəliləyiş olduğunu nümayiş etdirdi.

***Anar ƏLİ***
***XQ***

# Demokratik seçimin Azərbaycan nümunəsi




## TÜRKPA: Azərbaycanda parlament seçkiləri beynəlxalq standartlara uyğun olaraq azad və demokratik şəkildə baş tutub

Bakı, Şamaxı və Qobustandakı seçki məntəqələrində səsvermə prosesini müşahidə etdik. Məntəqələrdə seçicilərin səsverməsi üçün lazımi şərait yaradılmışdı.

TÜRKPA müşahidə missiyasının rəhbəri Ahmet Zenbilçi növbədənkənar parlament seçkilərinin ilkin nəticələri ilə bağlı keçirilən mətbuat konfransında belə deyib. O bildirib ki, namizədlərin təşviqat dövründə sərbəst şəkildə kampaniya həyata keçirməsinə şərait yaradılıb.

"Növbədənkənar parlament seçkiləri ilk dəfə olaraq ölkənin bütün suveren ərazilərində keçirilib. Müşahidə apardığımız məntəqələrdə fiziki məhdudiyyətli şəxslər üçün pandusların və gözdən əlillər üçün trafaretlərin hazırlanmasını müsbət qiymətləndiririk. Seçkilər beynəlxalq standartlara uyğun olaraq azad və demokratik şəkildə baş tutub", – deyə Ahmet Zenbilçi qeyd edib.

## Pakistan Senatının üzvü: Seçki məntəqələrində insanlar çox rahat şəkildə səs verə bilirdilər

Bu fikri sentyabrın 1-də keçirilən növbədənkənar parlament seçkilərinin ilkin yekunları ilə bağlı təşkil olunan mətbuat konfransında Pakistan Senatının üzvü Afnan Ullah Khan səsləndirib.

Azərbaycan Milli Məclisinin dəvəti ilə seçkiləri müşahidə etmək üçün Bakıya gəldiklərini deyən Afnan Ullah Khan bildirib: "Nümayəndə heyətimiz yeddi nəfərdən ibarətdir. Biz üç seçki məntəqəsində müşahidə apardıq. Prosesi sonadək təhlil etdik. İnsanların sərbəst səs verdiyinin şahidi olduq. Hesab edirik ki, seçki yaxşı təşkil olunub".

Demokratiyanın hər bir ölkənin inkişafı üçün vacib proses olduğunu söyləyən Pakistan Senatının üzvü Azərbaycana uğurlar arzulayıb. "Ümid edirik ki, Azərbaycan və Pakistan əməkdaşlığı davamlı olacaq", – deyə o, əlavə edib.

## Jakop Eyeru: Azərbaycanda şəffaflıq, legitimlik meyarlarına cavab verən azad və ədalətli seçkilər baş tutub

"Altı qrupdan ibarət nümayəndə heyətimiz Bakıda yerləşən müvafiq məntəqələrdə keçirilmiş seçki prosesində müşahidəçi qismində iştirak edib. Keçirilən müşahidə ölkə qanunvericiliyinə, habelə seçkilərin təşkili və keçirilməsinə dair beynəlxalq standartlara əsaslanan qanunlara və qabaqcıl təcrübəyə uyğun olaraq aparılıb".




Bunu Qoşulmama Hərəkatı Gənclər təşkilatının müşahidə missiyasının üzvü Jakop Eyeru növbədənkənar parlament seçkilərinin ilkin nəticələri ilə bağlı keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, nümayəndə heyətinin üzvləri 7, 15, 16, 17 saylı seçki dairələrinin bir sıra seçki məntəqələrində səsverməni sona qədər izləmiş, ümumilikdə isə 54 seçki məntəqəsində baş tutmuş seçki prosesinin hər bir mərhələsinin monitorinqində yaxından iştirak edib.

"Müşahidəçilər təsdiqləyiblər ki, bütün təyin edilmiş seçki məntəqələrində səsvermə zamanı şəffaflıq və legitimlik meyarlarına cavab verən azad və ədalətli seçkilər baş tutub. Müşahidəçilər həm yerli, həm də beynəlxalq nümayəndə heyətinə obyektiv müşahidələrin aparılması üçün lazımı inzibati dəstəyin göstərildiyini qeyd ediblər", – deyə müşahidə missiyasının üzvü vurğulayıb.

## ASEAN PA-nın üzvü: Seçki prosesində hər hansı siyasi diskriminasiyaya yol verilməyib

"Nümayəndə heyəti olaraq bütün səsvermə prosesini ilk gündən başlayaraq, müşahidə imkanı əldə etmişik. Səsvermə məntəqələrinin açılışından etibarən seçicilərin səsverməyə gəlməsi, ilkin nəticələrin Mərkəzi Seçki Komissiyası tərəfindən elan edilməsinədək hər bir prosesi müşahidə etdik. Səsvermə məntəqələrində MSK-nın səriştəli nümayəndələri səs vermək üçün gələn insanlara öz dəstəklərini göstərirdilər, suallarını cavablandırırdılar".

Bu fikirləri Cənub–Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlament Assambleyasının üzvü, Kamboca Milli Assambleyasının üzvü Sos Mauzin növbədənkənar parlament seçkilərinin yekunları ilə bağlı sentyabrın 2-də keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, seçki məntəqələri açılan andan səslər sayılana qədər bütün imkanlardan istifadə edilərək səsvermə prosesi tam azad, ədalətli və şəffaf bir tərzdə həyata keçirilib.

"Nümayəndə heyəti hər hansı bir qayda pozuntusu, zorakılıq və digər bu kimi halların şahidi olmayıb. Səsvermə sahələrində və seçki prosesində hər hansı bir siyasi diskriminasiyaya yol verilməyib. Bundan başqa, biz Azərbaycan hökumətinin təhlükəsizliyin və ictimai asayişin qorunması sahəsində səylərini yüksək qiymətləndiririk", – deyə Sos Mauzin diqqətə çatdırıb.

## Gürcüstanlı müşahidəçi: Parlamentin yeni tərkibi formalaşdırıldıqdan sonra ölkələr arasındakı əlaqələr daha da güclənəcək

Biz bir neçə seçki məntəqəsində müşahidə apardıq. Seçki prosesinin yüksək səviyyədə keçirildiyini gördük.

Bunu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) Albaniyadan olan üzvü Petro Koçi mətbuat konfransında bildirib. O qeyd edib ki, onlar MSK sədri ilə görüşüblər və parlament seçkilərinin heç bir qanun




pozuntusu olmadan keçirildiyini bildiriblər.

Serbiya Parlamentinin üzvü İqor Beçiç isə vurğulayıb ki, onlar hər hansı qanun pozuntusu qeydə almayıblar: "Mən Yeni Azərbaycan Partiyasını seçkilərdə qazandığı inamlı qələbə münasibətilə təbrik edirəm. Bu, ölkə vətəndaşlarının Prezident İlham Əliyevə olan etimadının göstəricisidir. Azərbaycanla Serbiya arasındakı strateji əməkdaşlıq yüksək səviyyədədir. Bu da qarşılıqlı etimadın göstəricisidir. Azərbaycan Prezidenti İlham Əliyev və Serbiya Prezidenti Aleksandar Vuçiç arasındakı münasibətlər ikitərəfli əlaqələrin inkişafı üçün mühüm önəm daşıyır".

Gürcüstan Parlamentinin üzvü, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının vitse-prezidenti Ramaz Nikolaeşvili qeyd edib ki, hər bir azərbaycanlı seçkidə yalnız öz istədiyi namizədə səs verirdi. "Bunu bizim əldə etdiyimiz nəticələr də sübut edir. Ümumiyyətlə, Azərbaycan xalqı öz qələbəsi ilə qürur duymalıdır. Prezident İlham Əliyevin güclü siyasəti xalqa bütöv bir Azərbaycan qazandırdı. Biz öz tərəfimizdən hesab edirik ki, Azərbaycanda bu cür seçkilərin keçirilməsi çox əlamətdar bir haldır. Azərbaycan işğaldan azad edilmiş torpaqlarda həm prezident, həm də parlament seçkilərini keçirməyə müvəffəq oldu", – deyə Ramaz Nikolaeşvili vurğulayıb.

## Sergey Xomenko: Seçkilərin nəticələrinə təsir edə biləcək hər hansı qayda pozuntusu müəyyən etmədik

Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı ilə biz Füzuli, Şuşa və Xankəndidə olduq, oradakı bütün seçki məntəqələrində müşahidə apardıq. Deməliyəm ki, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin hər hansı müddəasının pozulmasını görmədik. Bundan başqa, MSK hazırlıq işlərini yüksək səviyyədə təşkil edərək bütün qaydalara əməl olunmasını təmin edib.

Bu sözləri Belarus Respublikası Milli Məclisi Respublika Şurası sədrinin müavini Sergey Xomenko növbədənkənar parlament seçkilərinin yekunları ilə bağlı sentyabrın 2-də keçirilən mətbuat konfransında söyləyib.

"Biz bir neçə amilə diqqət yetirdik, Azərbaycan xalqının seçkilərdə öz iradəsini nümayiş etdirməsini, ictimai asayişin qorunmasının təşkilini, ümumilikdə, xalqın bu seçkilərdə iştirak əzmini müşahidə etdik. MDB-nin bu missiyasının bəyanatında qeyd edildiyi kimi, seçkilərin nəticələrinə təsir edə biləcək hər hansı qayda pozuntusu müəyyən edilməyib. Bu da seçkilərin yüksək səviyyədə keçirilməsinə dəlalət verir", – deyə o, diqqətə çatdırıb.

## Mohamed Sabbari: Parlament seçkilərində müşahidəçi kimi iştirak etmək bizim üçün şərəf idi

Sentyabrın 1-də keçirilən növbədənkənar parlament seçkilərində müşahidəçi kimi iştirak etmək bizim üçün şərəf idi.

Bunu növbədənkənar parlament seçkilərinin ilkin yekunları ilə bağlı təşkil olunan mətbuat konfransında Mərakeş parlamentinin Nümayəndələr Palatası sədrinin birinci müavini Mohamed Sabbari səsləndirib.

O, eyni zamanda bildirib: "Biz Mərakeş nümayəndələri olaraq dünən səhər saatlarından seçki məntəqələrində olduq. Bütün mərkəzlərdə çox gözəl tərtibatlı seçki məntəqələri qurulmuşdu. Seçkilərin uğurlu olması üçün bütün qaydalara əməl edilmişdi. Orada, həmçinin namizədlərin nümayəndələri seçkini izləyirdilər. Məntəqələrdə hər hansı pozuntu olduğunu müşahidə etmədik. Bu demokratik bayram münasibətilə Azərbaycan Prezidentini, hökumətini, xalqını təbrik edirəm".

O, həmçinin növbədənkənar parlament seçkilərinin Azərbaycanın bütün suveren ərazilərində, xüsusilə, Qarabağda keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

# Paytaxt seçicilərinin inam və etimad günü

**Xəbər verdiyimiz kimi, Milli Məclisə növbədənkənar seçkilər paytaxtın bütün rayonlarında yüksək demokratik şəraitdə və seçici fəallığı ilə tarixə qovuşdu. Əməkdaşlarımızın Dairə və məntəqələrdən hazırladıqları və dünənki sayımızda geniş yer almış reportajların davamını təqdim edirik.**





## Nizami

1 sentyabr təkcə Azərbaycan Respublikası parlament seçkiləri günü yox, həm də vətəndaşlarımızın öz vəzifələrinin icrasına münasibətlərinin növbəti sınaq günü idi. Xalqımız müstəqillik illərində bu sınaqdan alnıaçıq çıxdığını dəfələrlə sübut edib. Bu dəfə də belə olacağına əminlik vardı.

Bu əminliklə 25 sayılı Nizami ikinci seçki dairəsinin 14 və 15 saylı məntəqələrinə üz tutduq. Seçki məntəqələrində səsverməyə səhər 08:00-dan start verilmişdi, seçici fəallığı aydın şəkildə müşahidə olunurdu.Vətəndaşlar böyük həvəslə istədikləri namizədə səs verirdilər. Seçki prosesini çoxsaylı yerli müşahidəçilər və məşvərətçilər izləyirdilər.

Ümumiyyətlə, seçkilərin tam şəffaf və demokratik şəraitdə keçirilməsi üçün hazırlıq işlərinin yüksək səviyyədə başa çatdırılması haqqında məlumatlar ictimaiyyətə hələ seçki günündən əvvəl açıqlanırdı. Məntəqəyə daxil olan zaman bunun bir daha şahidi olduq. Seçicilərin baş barmaqları xüsusi elektron qurğu ilə yoxlanılır, bu məntəqədə qeydiyyatda olduğu dəqiqləşdiriləndən sonra barmağı şəffaf mürəkkəblə boyanaraq bülleten almaq üçün müvafiq komissiya üzvünün stoluna yönəldilirdi. Məntəqə bütün lazımi texniki vasitələrlə təmin olunmuş, vətəndaşların seçim hüquqlarının reallaşdırılması üçün hər cür şərait yaradılmışdı.

Məntəqə sədri Şəbnəm Quliyeva vətəndaşların azad şəkildə səs verdiyini vurğuladı və seçicilərin ölkənin siyasi həyatında əlamətdar hadisə olan parlament seçkilərində fəal iştirak etdiklərini qeyd etdi: "Seçkilərin demokratik və şəffaf şəkildə keçirilməsi, seçicilərin seçki məntəqələrinə rahat, maneəsiz gəlib səs vermələri üçün hər cür şərait yaradılıb".

Səsvermədən sonra məntəqəni tərk edən vətəndaşa yaxınlaşırıq. Ülviyyə Rzayeva hər dəfə olduğu kimi, indiki seçkilərdə də öz seçimini etmək üçün hər hansı bir müdaxilə ilə rastlaşmadığını bildirdi.

Seçki məntəqələrində gördüklərimiz bizdə də xoş təəssürat yaratdı. Azərbaycanın ictimai-siyasi həyatında mühüm hadisə olan parlament seçkilərinin azad və şəffaf şəraitdə keçirilməsi ölkəmizdə yüksək demokratik mühitin formalaşmasından xəbər verir. Bunu seçki məntəqələrində nəzərəçarpan seçici fəallığı bir daha göstərdi.

## Xətai

Növbədənkənar parlament seçkiləri paytaxtımızın əhalisinin sayına görə ən böyük rayonlarından olan Xətai rayonunda da mütəşəkkilliklə keçdi. Səhər saatlarından etibarən apardığımız müşahidələr seçicilərin seçki məntəqələrinə axınını aydın şəkildə göstərirdi.

Xətai rayonu ərazisində 4 seçki dairəsi fəaliyyət göstərir. Bunlar 33 saylı Xətai birinci, 34 saylı Xətai ikinci, 35 saylı Xətai üçüncü və 36 saylı Xətai–Suraxanı dairələridir. Seçki günü 35 saylı Xətai üçüncü seçki dairəsinin 17, 19 və 31 saylı məntəqələrində olduq. Həmin məntəqələr şəhid Milli Qəhrəman Tahir Bağırovun adını daşıyan 59 saylı tam orta məktəbdə yerləşir.

Binanın girişində səs verməyə gələn bütün seçicilərin barmaqları ultrabənövşəyi şüalarla təchiz olunmuş xüsusi detektorlarla yoxlanılırdı. Seçkidə şəffaflığın təmin edilməsinin mühüm elementi olan həmin cihazla yoxlama səs verməyə gəlmiş seçicinin bundan öncə səs verib-vermədiyini aşkarlamaq üçün idi. Səsvermə bülleteni alaraq kabinəyə yaxınlaşan seçicinin barmağına isə gözlə görünməyən mürəkkəb vurulurdu. Səhər saatları olsa da, seçki məntəqələri daxilində izdiham yaşanırdı. İnsanlar səs vermək üçün növbəyə düzülmüşdülər. Seçicilər arasında ilk dəfə səs verənlər də var idi.

17 saylı məntəqə seçki komissiyasının sədri Xalidə Nəbiyeva bildirdi ki, məntəqədə qeydiyyatda olan seçicilərin sayı 1396 nəfərdir. Onlardan 547 nəfəri günorta saatlarınadək səsvermə hüququndan istifadə etmişdi. Məntəqədə seçkinin gedişini ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun müşahidəçiləri də izləyiblər. Yerli müşahidəçilərin sayı isə 4 nəfər idi. Onu da öyrəndik ki, 17 saylı məntəqə Mərkəzi Seçki Komissiyasının veb-kamera quraşdırdığı 1000 seçki məntəqəsindən biridir.

19 saylı məntəqə seçki komissiyasının sədri Sevinc Əliyeva dedi: "Məntəqədə 1390 seçici qeydiyyatdadır. Günortayadək burada 475 seçici səsvermə hüququndan istifadə edib. Proses normal keçir. Heç bir narazılıq, qanun pozuntusu qeydə alınmayıb".

31 saylı məntəqə seçki komissiyasının sədri Fəridə Nəsibova isə açıqlamasında bildirdi: "Məntəqədə 1340 seçici qeydiyyatdadır. Seçkilər çox fəal keçir. Seçicilərin iştirakından razıyıq. Aktivlik yüksəkdir. Daşınan seçki qutusu yoxdur".

Məntəqələrdə müxtəlif namizədləri təmsil edən şəxslər müşahidə aparırdılar. Onlardan Vasif Qasımov qənaətini belə ifadə etdi: "Müşahidəçilərə heç bir problem yaradılmır. Səsvermədə yüksək aktivlik müşahidə olunur".

35 saylı Xətai üçüncü seçki dairəsində 50 min 395 seçici daimi qeydiyyatdadır. Onlardan bir nəfərin yaşı yüzdən yuxarıdır. Dairə üzrə 41 seçki məntəqəsi mövcuddur. Seçki məntəqələrinin 11-ində, o cümlədən qeyd etdiyimiz kimi, bizim də müşahidə apardığımız 17 saylı məntəqədə veb-kamera quraşdırılmışdı. Müşahidələrimiz deməyə əsas verir ki, dairə üzrə seçki prosesi, o cümlədən səsvermə qanunvericiliyin tələblərinə əməl etməklə təşkil olunmuşdu.

## Pirallahı

Pirallahı rayonunun seçiciləri də Milli Məclisə növbədənkənar parlament seçkilərində mütəşəkkilliklə iştirak edirdilər. Bunu rayondakı seçki məntəqələrində apardığımız müşahidələr bir daha təsdiqlədi.

Səhər saatlarından etibarən seçicilər yaşadıqları ərazidəki seçki məntəqələrində sərbəst şəkildə istədikləri namizədə səs verirdilər. 14 saylı Xəzər–Pirallahı seçki dairəsinin məntəqələrində müşahidəçilər səsvermənin gedişinə ciddi nəzarət edirdilər.

4 saylı seçki məntəqəsinin sədri Zümrüd Abbasova qeyd etdi ki, ərazidə seçicilərin ümumi sayı 1178 nəfərdir. Səhər saat 10-a qədər onlardan 158 nəfəri səsvermədə iştirak edib. Məntəqədə müxtəlif partiya və təşkilatları təmsil edən yerli müşahidəçilər səsvermənin gedişini göz qırpmadan izləyirdilər. Yeni Azərbaycan Partiyasının müşahidəçisi Ülviyyə Abbasova seçkinin ahəngdar və şəffaf şəkildə davam etdiyini, hər hansı nöqsanın müşahidə edilmədiyini bildirdi. Onun dediyinə görə, insanlar öz iradələrinə uyğun səs veriblər, heç kəs prosesə müdaxilə etməyib. Heç bir qanun pozuntusu da olmayıb.

Dairə seçki komissiyasının sədri İmran Qəmbərov isə bildirdi ki, ərazidəki bütün 42 seçki məntəqəsi ilə davamlı əlaqə saxlanılıb. Hər yerdə səsvermə normal şəkildə davam edib. Saat 12-də 10 min 723 seçici səs verib ki, bu da 21,2 faiz deməkdir. Axşam saatlarına qədər bu faizlər xeyli yüksəlib.

*Hazırladılar:*
***Səbuhi MƏMMƏDOV,***
***Paşa ƏMİRCANOV,***
***Səxavət HƏMİD***
***XQ***

# Bakı Avropa İttifaqının “sərhəd missiyası”na qarşı

**(əvvəli 1-ci səhifədə)**

Bəli, H.Hacıyev bildirir ki, artıq Aİ-nin sərhəd missiyasının Ermənistan tərəfdən Azərbaycan sərhədi yaxınlığında fəaliyyətinə ehtiyac yoxdur. Ümumən, sözügedən missiyaya nəinki indi, heç vaxt ehtiyac olmayıb. 2022-ci ilin dekabrından başlayaraq formalaşdırılmasına start verilmiş bu təsisatın, prinsip etibarilə, təxribat törətməyə hesablandığı məlum idi. Müşahidəçilərlə bağlı Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun “regionda əlavə qıcıqlandırıcılar” ifadəsi yerinə düşürdü.

Ancaq bir məqam da var ki, “qıcıqlandırıcılar” tam mənada fəaliyyət göstərə bilmədilər. Mahiyyətcə, heç Ermənistanın özünün də etimadını doğrultmadılar ki, rəsmi İrəvan bu barədə susdu. Ona görə susdu ki, əslində, məsələ böyük ölçüdə etimadda deyildi. Axı avropalılar regiona İrəvanın onlardan gözləntisi olduğu üçün gəlməmişdilər. Bu gəliş Fransa başda olmaqla, kollektiv Qərbin Cənubi Qafqaz müstəvisindəki fəaliyyətinin bir hissəsi idi. Yəni, heç kəs bu barədə Paşinyandan heç nə soruşmamış, onun razılığını almamışdı. Necə deyərlər, qərar yuxarıdan verilmişdi və məqsəd erməni iqtidarının payına düşən məsələnin faydaları ilə bağlı sabun köpüyü yaratmaq olmuşdu. Mövcud anlamda rəsmi İrəvan öz missiyasının öhdəsindən gəldi. Paşinyan və komandasının üzvləri özlərinə yaxın media orqanlarında və ekspert dairələrində Aİ-nin missiyasının boğazdanyuxarı təriflənməsini həyata keçirdilər, təsisatı sanki brend məhsul kimi göstərdilər.

Əlbəttə, quyuya su tökməklə sulu olmur. Avropalı müşahidəçilər bu deyimin “haqqını” lazımınca verdilər. Onlar hesabatlarında sərhəd zolağı boyu neçə kilometr yol qət etdiklərini, haradan hara getdiklərini açıqlamaqla, gülüş predmetinə çevrildilər. Hər kəs yaxşı anladı ki, missiya, əslində, vaxt keçirməklə məşğul olub. Əlbəttə, belə durumun yaranmasında Azərbaycanın da tutduğu siyasi xətt başlıca rol oynadı. Məlumdur ki, Aİ ölkəmizlə enerji sahəsində sıx əməkdaşlığa malikdir və Azərbaycan Avropanın qazla təminatında mühüm yer tutur. Hesab edirik ki, məhz bu məqam da Aİ-nin mülki müşahidə missiyasının aşkar təxribatçılıq kimi ehtimal edilən fəaliyyətinin gerçəkləşməsinə maneçilik törətdi. Maraqlıdır ki, Ermənistanda da bu məqamı qabardanlar oldu, lakin Paşinyan və tərəfdarları yenə susdular.

Bəs görəsən, indi H.Hacıyev nəyə görə missiyanın üzərinə köklənir? Hər halda, bildiyi hansısa konkret məqam olduğundan, məsələyə yer verir. Əlbəttə, həmin məqamdan indilik yalnız ehtimal şəklində söz açmaq mümkündür. Məsələn, cənab Hacıyev fikrini əsaslandırarkən deyir ki, hazırda iki dövlət arasında nizamlama prosesinin sülh, qarşılıqlı anlaşma şəraitində gedişatı var. Sitata diqqət yetirək və nəticə çıxaraq: “Artıq Avropa İttifaqının sərhəd missiyasının Ermənistan tərəfdən Azərbaycan sərhədi yaxınlığında fəaliyyət göstərməyinə ehtiyac yoxdur. Bu missiyanın da fəaliyyətinə xitam verilməsinin zamanı yetişib”.

Əvvəldə Ermənistanın ATƏT-in Minsk qrupunu danışıqlar prosesinə cəlb etmək istəklərindən təsadüfən söz açmadıq. Məsələ ondadır ki, ölkəmizin bu təsisatın ləğvi üçün Ermənistanla birgə müraciət ünvanlamasına dair tələbi var. Qarşı tərəfin cavabı isə budur ki, həmsədrlik institutu aradan qaldırılmamalıdır. Paşinyanın mətbuat konfransında mövcud xüsusda söylədiklərini yada salaq.

Erməni baş nazir vurğulamışdı ki, nizamlama prosesi başa çatmadığından, ATƏT-in Minsk qrupu buraxıla bilməz.



Onun fikirlərində məntiqsizlik yaranır. Bir halda ki, Nikol ikitərəfli danışıqlar formatının effektivliyini dilə gətirir, sözügedən təsisat onun (Ermənistanın) nəyinə lazımdır? Axı hazırda ATƏT-in Minsk qrupunun effektivliyin əldə olunmasında heç bir rolu yoxdur. Heç olmayıb da. Ümumən, qrup tam ölü vəziyyətdədir. Digər yandan, Minsk qrupu Qarabağ məsələsinin aktual olduğu dövrün məhsuludur. Paşinyan ölkəsinin, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bəyan edirsə, bu halda da hazırda harada olduqları bilinməyən həmsədrlərə ehtiyac yoxdur.

Eyni prizmadan yanaşsaq, Aİ müşahidəçilərinin də harada olduqları, real hansı işi gördükləri barədə təsəvvür yoxdur. Yəqin, razılaşarsınız ki, “Pikap” avtomobillərlə sərhədin bir başından vurub, o biri başından çıxmaq, durbinlə Azərbaycan ərazilərinə baxmaq iş sayıla bilməz. Ancaq istər Aİ müşahidəçiləri, istərsə də ATƏT-in kağız üzərində qalan Minsk qrupu Azərbaycan–Ermənistan danışıqlarında kənar elementlər, alətlər kimi çıxış etməkdədirlər. Ona görə də ölkəmiz hər iki təsisata qarşı çıxır.

Azərbaycan dövləti, həmçinin onu da yaxşı görür ki, hazırda Qərb dairələri tərəfindən Ermənistanı sülh yolundan daşındırmaq üçün müxtəlif planlar qurulur. İkinci istənilən an bu planlara alət olma təbiətindəki təmayülləri göstərir. Sanki, özünün avantürizmi, xəstə mahiyyəti üçün tutacaq yer axtarır. Ümumən, belə axtarışların nəticəsidir ki, dörd ildir Cənubi Qafqazda sülh şəraiti qərarlaşmır. Rəsmi Bakı isə anti-sülh meyilli istənilən məsələyə qarşı cəbhə açır. Deməli, belə qənaətə gəlmək mümkündür ki, H.Hacıyevin Aİ müşahidəçiliyinin lazımsızlığına dair fikirləri də sözügedən cəbhəni aktiv saxlamaq məqsədilə səslənmiş vacib siyasi tezisdir.

Digər tərəfdən, Azərbaycan Prezidentinin köməkçisi səmimiyyət nümayişinin vacibliyinə dair çağırış edir. Diqqət yetirək, o, hazırda tərəflər arasında (Ermənistan ilə Azərbaycan) reqlamentin razılaşdırıldığını, razılaşmaya uyğun olaraq delimitasiya prosesinin aparılması üçün zəmin və çərçivə yaradıldığını vurğulayır. O, eyni zamanda, qarşılıqlı anlaşma şəraitində prosesin bundan sonra da ikitərəfli əsasda davam edəcəyini vurğulayır və sərhədlərin delimitasiyasının sırf ikitərəfli xarakter daşıdığını önə çəkir.

Sonda bir daha səmimiyyət barədə söz açaq. Daha doğrusu, səmimiyyətsizlik haqqında. Bir halda ki, indiki durumda tərəflər özləri razılığa gəlib hansısa problemləri həll edirlər, o zaman haqqında söz açdığımız Aİ müşahidəçilərinin, eləcə də ATƏT-in Minsk qrupunun meydana çıxmasına yer olmadığı kimi, Ermənistanın silahlanmasına da lüzum yoxdur. Ancaq ölkənin militarizasiya siyasəti gerçəkləşdirdiyini görürük və istər-istəməz qarşı tərəfin səmimi olmadığına dair dolğun rəy formalaşır. H.Hacıyevin baş nazir Nikol Paşinyanın mətbuat konfransında səsləndirdiyi fikirlərə münasibətində də bu məqam yer alırdı: “Ermənistanın baş nazirinin açıqlamalarında kifayət qədər ziddiyyətli, həqiqəti əks etdirməyən məqamlar var. Ermənistan militarizasiya siyasətini həyata keçirir, bu, faktdır. Ermənistanın militarizasiya siyasətini həyata keçirməsində ona bir sıra Qərb ölkələri, xüsusilə Fransa tərəfindən ciddi dəstək verilir. Bu, Cənubi Qafqaz regionunda gərginliyin yaradılmasına xidmət edir”.

Aydındır ki, qeyri-səmimi mühit və gərginlik doğuracaq faktorlar qaldıqca, Bakı və İrəvan arasında görüntüsü yalnız üfüqdə közərən sülhün real məcraya qədəm qoyması mümkünsüzə çevriləcək. Bundan itirən tərəfin isə Ermənistan olacağı şübhəsizdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Paşinyanın anti-Rusiya tezisləri

**(əvvəli 1-ci səhifədə)**

Ancaq Paşinyan, öz aləmində, diplomatikliyini qoruyur. Onun sözlərindən belə çıxır ki, indiki mürəkkəb beynəlxalq şəraitdə Kremlin resursları məhdud idi və ona görə rus hərbçilərinin hava limanındakı xidməti davam etdirmələri çətinlik törədirdi. Guya, öz ölkəsinin resursları çox böyükdür. Digər tərəfdən, Rusiyanın rəsmi dairələrindən heç kəs açıqlama verməyib ki, “Zvarnots”da xidmət aparmaqda problem yaranmışdı. Onlar problem qondaranın Paşinyan olduğunu gözəl anlayırdılar və yenə eyni düşüncədədirlər.

Bu yerdə Paşinyan iqtidarı təmsilçilərinin vaxtilə Qarabağdakı Rusiya sülhməramlıları barədə bildirdiklərini yada salaq. Haylar rusların öz vəzifələrinin öhdəsindən gələ bilmədiyini vurğulayırdılar. Hazırda, təxminən, eyni ritorika Kremlin hakim rol oynadığı və Ermənistanın da üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı fonunda işə salınır. Paşinyan vaxtilə bu barədə çox söz açıb və mətbuat konfransında da məsələyə toxunaraq bildirdi ki, ölkəsi KTMT-dəki fəaliyyətini dondurub.

Onu da deyək ki, rəsmi İrəvanın son iki ildəki anti-KTMT xəttində, bir qayda olaraq, qurumdan çıxmaq üçün bəhanələrin işə salındığı görünürdü. Paşinyan bu dəfə həmin bəhanələri təkrarlamadı. Məsələn, demədi ki, qurum Ermənistan torpaqlarının Azərbaycan tərəfindən qəsbinə göz yumub, məsələyə dair siyasi qərar verməyib, ümumən Ermənistanın təhlükəsizliyini təmin etmək iqtidarından uzaqdır. Paşinyan indi bildirdi ki, KTMT-dəki fəaliyyətini donduran Ermənistan mövcud istiqamətdə “başqa vaxt və başqa qərar” da verə bilər.

Aydındır ki, başqa qərar olmayacaq. Sadəcə, Paşinyanın hazırkı anti-Rusiya xəttində bütün fraqmentlər dolub. O, KTMT fraqmentini ehtiyat variant kimi saxlayır və hələlik ona güc vermək istəmir ki, qərəzli tərəf qismində görünməsin. Ancaq onun güc verdiyi istiqamətlər yetərincədir. Məsələn, Paşinyan deyir ki, Ermənistan, guya, forpost deyil, dövlətdir və sülh gündəmi, eyni zamanda, bu məsələyə aiddir. Belə bir ifadənin seçilməsi o deməkdir ki, Rusiya, heç bir halda, sülh gündəmi ilə ölkəyə təsir göstərməli deyil. Görəsən, Nikol hazırda Ermənistanı Qərbin forpostuna çevirdiyinin fərqindədirmi?

Bəli, özünün anti-Rusiya ritorikasını davam etdirən erməni baş nazir son günlərin Bakı – İrəvan münasibətlərinin nizamlanması baxımından populyar olan tezis üzərində dayanır. Söhbət 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan gedir. Hazırda rəsmi İrəvanın tutduğu kurs onu deməyə əsas verir ki, Ermənistan üçtərəfli bəyanata məhəl qoymur. İş o yerə çatıb ki, Rusiyanın Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova İrəvanın rəsmi şəkildə sənəddən imtinası məsələsini qabardır. Daha doğrusu, Zaxarova, təxminən, belə deyir: Ermənistan bəyanata əməl etmirsə, bunu açıq bildirsin. Paşinyan isə yenə, guya, diplomatik davranır və bildirir ki, imzasını üçtərəfli bəyanatdan götürməsinə hansısa səbəb görmür. “Sənəddən imtina o təəssürat yaradar ki, Ermənistan öz öhdəliklərini yerinə yetirməyə hazır deyil. Öhdəliklərin yerinə yetirilməsindən tərəf və ya tərəflər boyun qaçırıb”, – deyən erməni baş nazirin “tərəf və ya tərəflər” məntiqindəki hədəfin Azərbaycan və Rusiya olduğu şübhəsizdir.



Bəli, üçtərəfli Bəyanata məhəl qoymayan Ermənistan nəinki 10 noyabr 2020-ci il tarixli, ümumən 2020–2022-ci illərin üçtərəfli sazişlərinin heç birini saya salmır. Məsələn, 2023-cü ilin sentyabrına – ölkəmizin həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərinədək qeyri-qanuni erməni silahlı birləşmələri Qarabağda qalırdı. Rəsmi İrəvan hər vasitə ilə çalışırdı ki, bölgəmizdəki separatçı rejim varlığını sürdürsün. Paşinyan iqtidarı, habelə, Qarabağ erməniləri üçün beynəlxalq təminat məsələlərini qaldırırdı ki, bu isə özlüyündə Azərbaycan yurisdiksiyasını heçə saymaq, ən əsası separatizmi dəstəkləmək idi.

Yəni, indi Paşinyan Azərbaycanda erməni əsirlərinin mövcudluğu kimi sərsəm iddianı əldə bayraq tutub deyə bilməz ki, üçtərəfli bəyanata kompleks yanaşmaq lazımdır, ayrı-ayrı detallar üzərində dayanmaq olmaz. Birincisi, həmin əsir dediyi şəxslər üçtərfli bəyanatın imzalanmasından sonra Azərbaycan ərazisində kəşfiyyat-diversiya fəaliyyəti həyata keçirən cinayətkarlardır. Qarabağdakı keçmiş separatçı rejimin “liderlərinə” gəldikdə isə onlar canilərdir və layiqli cəzalarını alacaqlar.

İkincisi, söhbət, bilavasitə, əsirlərdən gedirsə, minlərlə azərbaycanlı var ki, ermənilər tərəfindən əsir götürülüblər və bu gün də onların talelərindən heç bir xəbər-ətər yoxdur. Nəzərə alsaq ki, üçtərəfli Bəyanatda bütün hərbi əsir və girovlardan söz açılırdı, o zaman rəsmi İrəvan həmin azərbaycanlılar barədə, ən azından, məlumat verməlidir, amma susur.

Üçüncüsü, Paşinyanın məntiqinə görə, əgər üçtərəfli bəyanata kompleks yanaşılması, ayrı-ayrı detallar üzərində dayanılmaması vacibdirsə, Ermənistan Ağdam, Laçın və Kəlbəcərin ölkəmizə təhvil verilməsindən başqa, sənədin heç bir müddəasına əməl etməyib. Yəni, yalnız keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə aid olmayan rayonları geri qaytarmaqla kifayətlənib, ancaq ümumən Qarabağ avantürasını davam etdirib. Yada salaq ki, antiterror tədbirlərinədək Nikolun ən son bəyanatı bu olmuşdu ki, Qarabağın özünün seçkili hakimiyyəti var. O, bir tərəfdən bölgə də daxil Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanıdığını bildirirdisə, digər tərəfdən sərsəmləyirdi.

Üstəlik, Qarabağ ermənilərinə beynəlxalq təhlükəsizlikdən dəm vururdu. Bir sözlə, Paşinyanda səmimiyyətdən əsər-əlamət yox idi. Elə indi də yoxdur və onun bildirdiklərindən belə çıxır ki, üçtərəfli bəyanat Qarabağdakı separatizmi dəstəkləmək vasitəsi imiş. “Qarabağda baş verənlər üçtərəfli bəyanatda istifadə edilən bütün formulların çərçivəsini aşdı”, – deyən Paşinyanın Rusiyanı günahlandırdığı gün kimi aydındır.

Əlqərəz, erməni baş nazir anti-Rusiya ritorikası məsələsində təzadlı fikirlər səsləndirir. Məsələn, o, ölkəsinin prinsipial olaraq heç bir vasitəçiliyə qarşı çıxmadığını vurğulayır. Sonra isə bildirir ki, sonuncu danışıqlar zamanı vasitəçilər olsaydı, nizamlama prosesi sıradan çıxardı. Bu deyimdə incəlik var. Məlumdur ki, sərhədlərin delimitasiyası və demarkasiyası barədə danışıqlar Azərbaycanın, Rusiyanın və Ermənistanın baş nazirlərinin müavinləri arasında gedirdi. Erməni iqtidarı məhz bu xətti sıradan çıxardı. Daha dəqiq desək, Rusiyanı kənarda saxladı və Azərbaycanla birbaşa danışıqlar apararaq imkan vermədi ki, əldə olunacaq razılaşmada Moskvanın mövqeyi vurğulansın. Paşinyançılar indi də təxminən onu deyirlər ki, əgər prosesdə Rusiya iştirak etsəydi, nəticə olmayacaqdı.

Mövcud trayektoriyada “prinsipial olaraq heç bir vasitəçiliyə qarşı çıxmamağa” gəlincə, rəsmi İrəvanın Qərb vasitəçiliyi fazasını aktiv saxlamağa çalışdığı ortadadır. Son zamanlar bu “aktivliyə” daha bir seqment əlavə olunub – ATƏT-in canını tapşırmış Minsk qrupu. Yeri gəlmişkən, Paşinyan mətbuat konfransında qurumun ləğvi ilə bağlı Azərbaycanın tələbini yerinə yetirməyəcəyini açıqladı. Deməli, Qarabağ avantürasını diri saxlamaq niyyəti var. Çünki Minsk qrupunun gündəliyi Qarabağ danışıqları müstəvisində idi. Halbuki, Nikolun ötən il qrupun həmsədr ölkələr arasındakı ziddiyyətlər səbəbindən fəaliyyət göstərməsinin mümkünsüzlüyünü bildirən açıqlaması olmuşdu. İndi həmin ziddiyyətlər aradan qalxıbmı? Xeyr! Bəs niyə rəsmi İrəvan sözügedən təsisatın vasitəçilik missiyasını qabardır? Ona görə ki, Ermənistan iqtidarı, ümumən, Qərb vasitəçiliyi xəttinin bütün seqmentlərini aktiv saxlamaq niyyətindədir. Ölkə rəsmiləri hesab edirlər ki, məhz bu yolla hansısa üstünlüklər qazana biləcək, regiondakı reallıqları öz xeyirlərinə dəyişməyi bacaracaqlar. Bir sözlə, illüziyaya qapılırlar.

N.Paşinyanın “üçtərəfli bəyanata kompleks yanaşma” ritorikası ilə anti-Rusiya davranışındakı növbəti məqam regional kommunikasiyaların açılması ilə əlaqədardır. Məlum olduğu kimi, Rusiyanın Xarici işlər naziri Sergey Lavrov bir müddət əvvəl Ermənistanın regional kommunikasiyaların blokdan çıxarılmasını sabotaj etdiyini vurğulamışdı. Nikol isə bildirir ki, durumun belə alınması rusiyalı həmkarlarının bəzi sənədlərlə bağlı ziddiyyətli şərhlərinə görədir.

Əslində, reallıq ortadadır. İrəvan üçtərfli bəyanatın 9-cu bəndini yerinə yetirmək istəmir. Rəsmi Moskvanın üzərində dayandığı da elə budur. Axı həmin 9-cu bənddə konkret göstərilib ki, Ermənistan Azərbaycanın qərb rayonlarını Naxçıvanla birləşdirən yolun açılmasını təmin etməlidir. Yolda təhlükəsizliyi isə Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhədçiləri həyata keçirməlidirlər. Erməni iqtidarının nümayəndələri bunu ölkələrinin ərazi bütövlüyü və suverenliyi baxımından yolverilməz sayırlar. Maraqlı nüans var: Gümrü istiqamətində Türkiyə ilə sərhəddə rus sərhədçiləri dayanır, bu, ölkənin ərazi bütövlüyü və suverenliyinin pozulması olmur, amma 40 kilometrlik yolda rusların olmaları təhdid imiş...

Tam aydındır ki, Ermənistan Qərbin Rusiyanı Cənubi Qafqazdan çıxarmaq yönümlü direktivlərini reallaşdırmağa qol çırmayıb. Nəzərə alsaq ki, sözügedən məsələ həm də Azərbaycanla nizamlama prosesinin vacib elementidir, rəsmi İrəvanın nəyə görə sülhdən yayındığı aşkardır. Necə deyərlər, bütün daşlar yerinə oturur. Paşinyan və komandası bir şeyi anlamaq istəmirlər ki, 2020-ci il müharibəsi zamanı acınacaqlı duruma düşən Ermənistan idi. Acınacaqlı duruma düşdü ki, məcbur qalıb kapitulyasiya sənədinə imza atdı və qoyulan tələbi qəbul etdi. Həmin tələbi Azərbaycan da səsləndirir: Naxçıvana yol “Azərbaycandan Azərbaycana yol” məntiqinə əsaslanmalıdır. Yəni, orada hansısa sərhəd və gömrük nəzarətinin tətbiqi qəbuledilməzdir. Paşinyan isə mətbuat konfransında ənənəvi tezisləri təkrarlayır və deyir ki, Ermənistan regional kommunikasiyaların açılmasını sabotaj etmir, əksinə dəstəkləyir: “Siz “Dünyanın kəsişməsi” layihəsindən xəbərdarsınız”.

Göründüyü kimi, Paşinyan regional kommunikasiyaların yalnız rəsmi İrəvan tərəfindən irəli sürülmüş “Dünyanın kəsişməsi” layihəsi çərçivəsində açılmasının mümkünlüyünə dair mövqeyini bir daha təkrarlayır. Təkrarlamanın, həmçinin ərazi bütövlüyü və suverenlik klişesinin üzərində dayanılmasının Ermənistanın anti-Rusiya ritorikasının da tərkib hissəsi olduğunu görmək çətin deyil. Bu baxımdan Rusiya XİN-in rəsmi nümayəndəsi M.Zaxarovanın bir müddət əvvəl səsləndirdiyi fikirlərin üzərində dayanmağı vacib sayırıq. Xanım Zaxarova haqqında söz açdığımız Azərbaycan, Rusiya və Ermənistan baş nazirləri müavinlərinin həmsədrliyi ilə formalaşmış üçtərəfli işçi qrupu çərçivəsindəki proqresdən söz açmış və bildirmişdi ki, həmin formatdakı müzakirələrlə beynəlxalq yurisdiksiyaya əsaslanan, Ermənistanın ərazi bütövlüyünə xələl gətirməyən variant razılaşdırılmışdı. Ancaq son anda erməni tərəf absurd fikir irəli sürüb: Rusiya hərbçiləri Ermənistan ərazisində olduğu kimi, Azərbaycan ərazisində də keşik çəksinlər.

Beləliklə, danışıqlar dalana dirənib.

...Bəli, “Dünyanın kəsişməsi” avantüradır və məsələdən Rusiyada da yaxşı xəbərdardırlar. Prinsipcə, layihənin avantürist mahiyyəti barədə Bakı və Moskva arasında mövqe ortaqlığı mövcuddur. Ümumən, “Dünyanın kəsişməsi” yox, məhz Azərbaycanın “Zəngəzur dəhlizi” təşəbbüsü müstəvisində beynəlxalq aləmdə konsensus var. Paşinyan isə təxribat yolu tutur və bildirir ki, guya, Rusiyadakı tərəfdaşları “Dünyanın kəsişməsi”ni alqışladıqlarını bəyan ediblər. Ardınca isə o, Rusiyanın hakimiyyət orqanları arasında məsələyə yanaşmada fikir ayrılıqlarının olduğuna dair cəfəngiyata varıb, bunu anlaşılmazlıq kimi dəyərləndirir. Heç şübhəsiz, belə yanaşma Bakı ilə Moskva arasında inamsızlıq formalaşdırmağa hesablanmış ucuz erməni fitnəsidir.

Sonda Paşinyanın mətbuat konfransında səsləndirdiyi fikirlərin anti-Rusiya tezisinə dair daha bir məqamın üzərində dayanaq. Baş nazir deyir ki, Qarabağ məsələsi Ermənistana təsir göstərmək, onu müstəqilliyindən məhrum etmək üçün alət kimi istifadə edilib. Şübhəsiz, bu fikirdə də hədəf Moskvadır. “Qarabağ məsələsindən Ermənistanı müstəqilliyindən məhrum etmək üçün istifadənin konkret tərəfdarları ölkə daxilində də var. Onların adları hər kəsə yaxşı məlumdur”, – deyən Nikolun ruspərəstlərə fokuslandığı aşkardır. Ruspərəstlərdən söz düşmüşkən, Paşinyan Qarabağın itirilməsi xüsusunda Rusiyaya köklənərkən Ruben Vardanyan faktorundan söz açıb: “Hesab edirəm ki, Ruben Vardanyan məsələsində aydın olmayan məqamlar var. Necə oldu ki, Vardanyan Rusiya vətəndaşlığından imtina etdi? Onu kim Ermənistana və Qarabağa göndərdi? Hansı təminatlar alımışdı? Yekunda kim dedi ki, onu o qədər də yaxşı tanımır və ölkəsinin vətəndaşı deyil? (Rusiya Prezidenti Vladimir Putini nəzərdə tutur – red.)”

Paşinyan dilə gətirməsə də, dediklərindən gəlinən qənaət budur ki, R.Vardanyan “Qarabağ kartı” ilə Ermənistanda hakimiyyət dəyişikliyi həyata keçirmək istəyənlərin layihəsi olub. Yada salaq ki, vaxtilə, o və komandasındakı bir sıra şəxslər Rusiyanın Ermənistanda çevriliş etmək niyyətindən söz açmışdılar. Elə Rubenin özü də Nikolu devirmək çağırışları səsləndirmişdi. Nəticədə belə təəssürat yaranmışdı ki, Vardanyanı Ermənistana və Qarabağa göndərən elə Rusiya dairələridir. Paşinyan da mətbuat konfransında dolayısı ilə məhz bunu bildirdi.

Ən sonda belə qənaətə gəlirik ki, erməni baş nazirin mətbuat konfransında bildirdikləri rəsmi İrəvanın anti-Rusiya xəttini diri saxlamaq niyyətinin növbəti dəfə ifadə olunmasıdır. O da tam aydındır ki, anti-Rusiya xətti Ermənistan üçün, eyni zamanda, Azərbaycanla sülhdən yayınmaq vasitəsidir. Paşinyan həmişə Moskvanın Bakıya tərəfkeşliyi məsələsində beynəlxalq ictimaiyyətdən ölkəsinin avantürası üçün dəstək qazanmağa çalışıb və indi də çalışır. Onun heç nəyə nail ola bilməyəcəyi şübhəsizdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Vətən müharibəsinin fəlsəfəsi

**VIII MƏQALƏ**

**Hər bir insan üçün Vətənə, torpağa sədaqət ən ülvi xüsusiyyətdir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

## Azərbaycançılığın türkçülük qaynağı

Vətən müharibəsinin gedişində çox sayda maraqlı hadisələr müşahidə edildi. Dünya ictimaiyyəti azərbaycanlıların savaşda coşqularına heyran qaldı. Müxtəlif epizodlarda Azərbaycan əsgərinin şücaəti, qorxmazlığı və peşəkarlığı hər kəsi təəccübləndirdi. Xüsusilə, məşhur Şuşa əməliyyatında Azərbaycan əsgərlərinin göstərdikləri qəhrəmanlıq dillər əzbəri oldu.

Fransız jurnalistlər təəccüb edirdilər ki, məhv edilən erməni əsgərlərin böyük əksəriyyəti tapança və bıçaq yaraları almışlar. Yəni Şuşada savaş faktiki olaraq əlbəyaxa formada olmuşdur. Bu o deməkdir ki, hücum edən Azərbaycan əsgəri qorxu bilmədən müqəddəs Vətən uğrunda döyüşmüşdür.

Diqqəti çəkən digər məqam Azərbaycan Ordusunun bir nəfər də olsun yaralını döyüş meydanında qoymaması ilə bağlıdır. Bir əli ilə yaralı döyüş yoldaşını daşıyan Azərbaycan əsgəri, o biri əlindəki bıçaqla düşmənlə savaşmış və qalib gəlmişdir. Və yaxud yaxın məsafədən tapança ilə düşməni zərərsizləşdirmişdir. Hərbi ekspertlərin fikrinə görə, XXI əsr savaş tarixində ikinci belə bir nümunə yoxdur.

İndi müxtəlif beyin mərkəzlərində bu təcrübə araşdırılır. Aydınlaşdırmaq arzusundadırlar ki, Azərbaycan əsgərini bu cür motivə edən dəyərlər hansılardır? Bu şücaətin, daxili passionarlığın ideya kökü haradadır? Bu təcrübəni necə mənimsəmək olar? Belə suallara cavab axtarışları sirr deyildir və xüsusilə Qərb beyin mərkəzləri açıq surətdə onları təhlil etməyə çalışırlar.

Bu cür durumdan iki nəticə çıxara bilərik. Birincisi, Azərbaycan Ordusu dünya miqyasında diqqəti çəkən motivasiyaya malikdir. İkincisi, bu keyfiyyəti dünya miqyasında təsadüfi saymır, onun ideya, mənəvi və mədəni köklərini öyrənməyə çalışırlar.

Biz əsgərin peşəkar hazırlıq metodlarını bir kənara qoyuruq. Çünki o sahənin bilicisi deyilik. Ancaq Vətən müharibəsinin fəlsəfəsi kontekstində maraqlı və əhəmiyyətli bir özəllik üzərində dayana bilərik. Bunun üçün məsələnin təhlilinə ümumi bir suala cavabla giriş edə bilərik. Yəni insanı savaşa motivə edən bütün faktorların mənəvi-əxlaqi, ideoloji və mədəni təməlində hansı kodlar dayanır? Nə üçün Azərbaycan əsgərinin motivə səviyyəsinə, məsələn, erməni əsgəri çata bilmir?

Mücərrəd və gerçəklikdən kənar görünməmək üçün bir müqayisə aparmaq istərdim. Azərbaycanlılar istənilən kritik situasiyada kişilik faktoruna əsaslanırlar. "Kişi sözü", "bu kişilikdən deyil", "bu, kişiyə yaraşmaz" kimi ifadələr Azərbaycanda xüsusi çəkisi və əlaməti olan sözlərdir.

Bu o demək deyildir ki, başqa xalqlarda oxşar deyimlər yoxdur. Ancaq azərbaycanlılar üçün bu, elə dərinlikdə xarakterikdir ki, hətta ən ağır vəziyyətdə belə həmin sözlərə uyğun davranış təqdir olunur. Deyək ki, azərbaycanlı mentalitetində məğlub olmuş tərəflə "kişi kimi davranmaq" qaydası aksiomdur.

Başqa bir nümunə. Azərbaycanlı üçün məğlub olmuş tərəfi özünə düşmən etməmək kimi, humanist bir qayda mövcuddur. Yəni, Azərbaycan adətində "yıxılanı vurmaq" üstünlük sayılmır. Əksinə, əl uzadıb onu qaldırmaq daha mərdanə davranış hesab olunur.

Dövlət səviyyəsində bu qayda Azərbaycan Prezidentinin darmadağın olmuş Ermənistanı sona qədər məhv etməyi deyil, "əlindən tutub, əməkdaşlıq üçün qaldırmağı" seçməsində ifadə olunmuşdur. Bundan başqa, unutmayaq ki, Prezident İlham Əliyev Vətən savaşının nəticəsi kimi tarixi ədalətlə beynəlxalq hüquqa əməl olunmasını bir-biri ilə əlaqədə təqdim etmişdir.

Digər nümunələri də göstərmək olar. Ancaq vurğulanan özəlliklər də göstərir ki, azərbaycanlı mentalitetində ümumi təməldə müəyyən mənəvi-əxlaqi və ideya-psixoloji "sahə" vardır ki, əsrlərdir bu toplumun birgəyaşam fəlsəfəsində mühüm rol oynayır. Həmin "sahə"nin mərkəzində, bizcə, fərdin özünü yurd, el-oba və Vətənlə eyniləşdirməsi dayanır. Dövlətçilik aspektinə transformasiya edəndə, bu, ümumi halda "vətənçilik", müasir anlamda isə "azərbaycançılıq" deməkdir! Buna görə də azərbaycançılığın ümumtürk mənşəli milli məfkurə kimi qavranılması tam əsaslıdır!

## Azərbaycançılıqda ümumtürklük məqamı

Bu, çox səmərəli bir sintezdir. Məsələnin bu cür qoyuluşu avtomatik olaraq azərbaycançılığı ideya və ideoloji vahid kimi "türk – qeyri-türk" dixotomiyasının çərçivəsindən çıxarır və bütövlükdə, tarixi-siyasi və sosial-mədəni kontekstdə ideyanın təkamül dinamikası müstəvisinə gətirir. Bu anlamda "ümumtürklük" türk dövlətçiliyi kontekstində etnik mənsubluqdan asılı olmayaraq hər bir toplum üzvünün dövlətə və Vətənə münasibətinin ümumi xarakteristikası kimi məzmun alır. Onun aparıcı mexanizmi və təməl daşı isə türk qövmlərinin dövlət quruculuğu dinamikasında sosial-mədəni və birgəyaşam fəlsəfəsi çərçivəsində topladığı pozitiv təcrübədən ibarətdir. Bu anlamda ümumtürklük dövlətə və Vətənə sadiqliyin sinonimi kimi təsəvvür edilməlidir. Onun müasir mərhələdə ən parlaq təzahürü bütün azərbaycanlıların dövlətin başçısının bir səslənişi ilə "vəhdəti-vücud" ("bir can") olmasında özünü göstərdi! Azərbaycan əsgərinin fədakarlığının, şücaətinin dərin mənəvi qatlarında həmin kod dayanır!

Buradan bir qədər geniş anlamda "ümumtürk mənşəli milli" ifadəsinin məzmun çalarları aydınlaşa bilər. Yəni "milli" sözü, bütövlükdə Azərbaycan toplumunun özünəməxsusluğuna vurğudur. Bu mənada, "milli", yəni azərbaycançı, Azərbaycan toplumuna xas olan, azərbaycanlılara bütövlükdə aid olan keyfiyyət-kod deməkdir. Vahid Azərbaycan mədəniyyətinin mövcudluğu işığında bu tezis olduqca normal və təbii görünür. Bütün azərbaycanlıları təhtəlşüurda birləşdirən dəyərlər kifayət qədər realdır!



Bu tezisi bir qədər irəli gedərək "məfkurəçilik"lə bağlamaq artıq azərbaycançılığın krtitik situasiyalarda vətənçilik kontekstində konseptuallaşdırılması cəhdidir. Çox maraqlı və əhəmiyyətlidir! Fəlsəfəsini izah edək.

## Sərt dönəmlərdə azərbaycançılıq məfkurəsi

II Qarabağ savaşı təcrübəsini bu bağlılıqda dərk etmək üçün bir sıra ümumfəlsəfi məqamlara toxunmaq lazımdır. Məfkurə, bizə görə mükəmməl səviyyəyə çatmış milli ideologiyanın ali formasıdır. O, bütün toplumda daxili inklüzivlik özəlliyinə, yəni fərdlər tərəfindən sübutsuz qəbuledilənlik xüsusiyyətinə malikdir.

Hər bir toplumda bu keyfiyyət mövcud ola bilər. Fəlsəfi olaraq məfkurə o zaman toplumun milli əsasda davranış və təkamül standartlarını formalaşdırır ki, uzun müddət onun dayanıqlı və davamlı reaktuallaşması (təkrar-təkrar sosial mühitdə əyaniləşməsi) baş verir. Bu proses əsrlərlə davam edirsə, bütövlükdə, cəmiyyətin "sosial-ideoloji və mənəvi immun sistemini" yaradır. "İmmunitet" burada metaforadır və cəmiyyətin instinktiv olaraq təsirlərə kodlaşmış formada reaksiya verməsini ifadə edir.

Kritik situasiyalarda cəmiyyət intellektual reaksiyadan öncə "immunitet"lə reaksiya verir. Məsələn, hər hansı təcavüzə avtomatik olaraq iradi, mənəvi, əxlaqi, siyasi, ideoloji və feili cavab verir. Bununla paralel olaraq, intellektual reaksiya işə düşə bilər ki, bu, artıq təşkil olunmuş səviyyədə müqavimət hərəkatı yaratmaq deməkdir.

Bu qısa fəlsəfi izahların fonunda II Qarabağ savaşında azərbaycançılığın məfkurəvi təzahürü mərkəzində Azərbaycan insanının Vətən uğrunda özünü qurban verməyə hazır olması, savaş yoldaşına arxa olmaqda, müqəddəs saydığı dəyərləri qorumağın çox təbii olduğuna dərin inam dayanır.

> *Bu ruhsal və mənəvi halın konkret təzahürünü biz Beyləqanda savaş getdiyi zaman canlı şahidi olduğumuz bir hadisədə gördük. Beyləqan kəndlərinin birində azərbaycanlı ana iki övladını şəhid vermişdi. Ona baş çəkməyə getmişdik. Ananın gözündə qəmlə qürur qarışıq idi. Bir dəfə də olsun şikayətlənmədi. Əsasına söykənərək yaxınlıqda gedən savaş tərəfə boylanırdı. "Heç birini saxlaya bilmədim. Kiçik qardaş dedi ki, böyük qardaşım gedib, mən gərək onu müdafiə edəm. İkisi bir yerdə şəhid oldu. Ən yaxın qohumlar da eyni sözlərlə savaşa getdilər", söylədi.*
>
> *Ananın duruşunda, söyləmişində, gətirdiyi arqumentlərdə azərbaycançılığın məfkurəvi kodları vardı. Dolan gözlərini gizlədirdi. Sonda qardaşı ona sarıldı, hər ikisi hönkürdü, ancaq yenə sözləri bu oldu: "Vətən sağ olsun!". Bəli, göz yaşları içində "Vətən sağ olsun!" hayqırtısı əsrlərlə təhtəlşüurun və şüurun "təribiyə" etdiyi Vətən sevgisinin yüksək məfkurəvi təsdiqidir! Bunun üçün azərbaycançılığın məfkurə kimi konseptuallaşmasını bilməyə ananın ehtiyacı yoxdur! Ancaq biz onu öyrənməli, fəlsəfəsini yaratmalıyıq ki, Azərbaycan insanının gerçək kimliyini dünya duysun.*

Heç şübhə etmirəm ki, bu sətirləri oxuyan hər bir Azərbaycan vətəndaşı daha təsirli və çox sayda nümunələrin şahidi olmuşdur. Bizim yaddaşımızda Vətən savaşı bu kimi nümunələrlə əbədi olaraq qalacaqdır! Bu, bizim müqəddəs Vətən borcumuz olmalıdır!

Azərbaycançılığın ən yüksək səviyyədə məfkurəvi təzahürü Prezident İlham Əliyevin Vətən savaşı müddətində və postmüharibə mərhələsindəki fəaliyyətində qabarıq surətdə özünü göstərmişdir. İlham Əliyev hər an Azərbaycan hakimiyyəti, xalqı, cəmiyyəti və ordusunu motivə etdi, qələbəyə apardı. Milli maraqları, vətənçiliyi daim üstün tutdu. Xarici qərəzli jurnalistlərə verdiyi müsahibələrində özünü əsl vətənsevər, milli ləyaqətli, qürurlu, ədalətli və beynəlxalq hüquqa əməl edən dövlət başçısı kimi göstərdi. Və qalib gəldi! Qələbədən sonra şəhidlər üçün göz yaşını saxlaya bilmədi! Daxilən, mənəvi, əxlaqi və duyğusal olaraq tam mənada Böyük azərbaycanlı olduğunu təsdiq etdi!

Eyni zamanda, İlham Əliyev yorulmadan Qarabağı yenidən inşa edir. Dünyanın bütün vətənsevər və ədalətli insanlarını bu prosesə həvəsləndirir, cəlb edir. İlham Əliyev azərbaycançılıq məfkurəsinin tam daşıyıcısı kimi Vətən üçün mübarizəsini davam etdirir.

Vurğulanan məqamlar azərbaycançılığın "ərazi bütövlüyünün, vahid Vətən, vətəndaş həmrəyliyi və milli birlik ideyalarının təcəssümü" kimi ideya vahidi olaraq araşdırılmasını daha da aktuallaşdırır.

(ardı var)

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Replika**

# Referendum kələyi

## *Yaxud İrəvan sülh sənədini kağız parçasına necə çevirə bilər?*

**Ötən həftə Ermənistanın ədliyyə naziri Qriqor Minasyan konstitusiya islahatları ilə bağlı referendumun 2027-ci ildə keçiriləcəyi barədə "müjdə" verdi. Bakının sülh sazişinin imzalanmasına əsas əngəl hesab etdiyi Ermənistan konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı müddəaların çıxarılması tələbinə İrəvan "özüməxsus" şəkildə, hayasayağı cavab verib. Bu, o deməkdir ki, Paşinyan iqtidarı Azərbaycanla sülh müqaviləsini imzalamaq barədə düşünmür. Onlar bu məsələni "perspektiv plan" kimi üç il sonraya saxlamağa çalışırlar.**



Haylardan nə desəniz gözləmək olar. Əgər sabah, o biri gün Ermənistan siyasi hakimiyyəti Bakının tarixin arxivinə göndərdiyi "dqr"in keçmiş xunta rejiminin "geriyə qayıdışına" həsr olunmuş tədbirində iştirak etsə, orada separatçı tör-töküntülərin xoşuna gələn fikirlər səsləndirsə, buna qətiyyən təəccüblənməyəcəyik.

Əgər baş nazir Nikol Paşinyan 1 il əvvəl hakimiyyətinə "potensial təhlükə mənbəyi" saydığı separatçı-revanşist qüvvələrlə görüşlərini davam etdirsə, buradan belə bir məntiqi nəticə hasil olacaq ki, hayların başbiləni sülhə gəlməkdə qətiyyən maraqlı deyil. O, indiki vəziyyətdə, sadəcə, Azərbaycanla sülh oyununu davam etdirməklə məşğuldur.

Amma biz onu da xatırlayırıq ki, həmin Paşinyan 12 ay bundan əvvəl "artsax institutları"nın İrəvanda mövcudluğunu öz hakimiyyəti üçün təhdid hesab edirdi və bu səbəbdən keçmiş qondarma rejimin bütün atributlarını qeyri-qanuni elan etmişdi. Doğrudur, onun ötən il – sentyabrın 2-də Xankəndidəki daşnak-separatçılara "müstəqillik təbriki" göndərdiyini də unutmamışıq. Sonrası hamımız kimi, Paşinyanın özünə də bəllidir. İldırımsürətli 19–20 sentyabr antiterror tədbirləri ilə Azərbaycan bölgədə erməni separatizminin kökünü kəsdi.

Yerli analitiklərin bəziləri belə hesab edirlər ki, separatçılar "yenidən dirilməyi" və "artsax məsələsini" gündəmə gətirməyi qarşılarına məqsəd qoyublar. Bu isə ikitərəfli sülh prosesinə əngəl törədəcək amillərdən birinə çevrilə bilər.

Bir il bundan əvvəlki hadisələrə qısa nəzər yetirək. Azərbaycanın Qarabağda həyata keçirdiyi 23 saatlıq antiterror əməliyyatından sonra separatçıların nümayəndələri Yevlaxda görüşə gəldilər və bunun ardınca "dqr"in sonuncu "rəhbəri", quldurbaşı Samvel Şahramanyan bir "fərman" imzaladı. O, bəyan etdi ki, 2024-cü il yanvarın 1-dən etibarən qondarma qurumun bütün "orqanları" buraxılır.

Bununla da Azərbaycan özünün tarixi torpaqları üzərində ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi, separatçılar da rədd olub getdilər. Amma onlardan bəzilərinin qollarını qandallamağa məcbur olduq. Özünü və rejimini sənəd-sübutla buraxmış Şahramanyan isə "ana vətənə" gedəndən az sonra "fərman"ını geri oxudu, onu etibarsız elan etdi. Separatçıların İrəvandakı "nümayəndəliyi" onun ofisi oldu.

Bu məqamda hayların baş nazirinə növbəti sualımızı ünvanlayaq: Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığını, Bakı ilə sülh müqaviləsini imzalamağa hazır olduğunu bəyan edən Nikol Paşinyan nədən bu qanunsuz qurumu ləğv etmir? Bundan daha önəmlisi – potensial müharibəyə səbəb ola biləcək, işğalı təşviq edən Ermənistan konstitusiyası beynəlxalq hüquqa, BMT Nizamnaməsinə nə zaman uyğunlaşdırılacaq? Müjdəsini verdikləri və 3 il sonra keçirəcəkləri referendumdan, sülh sazişi kağız parçasına çevrilməndən sonramı?

Ermənistan baş naziri onun bu səpkidəki sülh nağıllarının son nəticədə sülhə deyil, altdan-altdan hazırlaşdığı, iqtidarı və ölkəsi üçün sonuncu olacaq müharibəyə apardığını doğrudanmı anlamır?

***İ.HƏSƏNQALA***
***XQ***

# Beynəlxalq müşahidəçilər XİN-də

**Sentyabrın 2-də Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Milli Məclisə növbədənkənar seçkiləri müşahidə etmək üçün ölkəmizdə səfərdə olan Malayziya Senatı sədrinin müavini Nur Cazlan Məhəmmədin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan–Malayziya ikitərəfli və çoxtərəfli əlaqələri, Milli Məclisə növbədənkənar seçkilər prosesi və nəticələri, habelə regional məsələlər müzakirə olunub.

Nazir bu ilin əvvəlində keçirilmiş prezident seçkiləri kimi, parlament seçkilərinin də azad, ədalətli və şəffaf keçirilməsi üçün ardıcıl, sistemli və intensiv şəkildə atılan addımlar, eləcə də beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı ilə bağlı tədbirlər barədə qarşı tərəfə məlumat verib.

*

**Nazir Ceyhun Bayramov ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının xarici işlər naziri Marko Curiç ilə də görüşüb.**



Təkbətək görüş nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam etdirilib, Azərbaycan ilə Serbiya arasında strateji tərəfdaşlıq münasibətlərinin siyasi, iqtisadi, ticarət, investisiyalar, enerji, nəqliyyat və kommunikasiyalar, humanitar və digər aspektləri, habelə regional, beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazir Marko Curiç ölkəmizi Azərbaycanda parlament seçkilərinin şəffaf, azad və demokratik formada təşkili münasibətilə təbriklərini çatdırıb, seçki prosesinin nəticələrinin Azərbaycan parlamenti üçün uğurlu olacağına dair ümidvarlıq ifadə edib.

*

**Dünən nazir Ceyhun Bayramov Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar seçkilərini müşahidə etmək üçün ölkəmizdə səfərdə olan Müstəqil Dövlətlər Birliyinin Baş katibinin birinci müavini Leonid Anfimovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan və MDB arasında əməkdaşlıq gündəliyi, habelə seçkilərdən irəli gələn məsələlər müzakirə olunub.

Ceyhun Bayramov Azərbaycan ərazisində suverenliyin tam bərpasından sonra sentyabrın 1-də keçirilən ilk parlament seçkilərinin vacib tarixi-siyasi hadisə olduğunu vurğulayaraq seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün görülən tədbirlər, o cümlədən bu prosesdə beynəlxalq müşahidəçilərin iştirakı ilə bağlı atılan addımlar barədə məlumat verib.

MDB Baş katibinin birinci müavini Leonid Anfimov prezident seçkilərində olduğu kimi, bu parlament seçkilərinin də Azərbaycan xalqı üçün mühüm əhəmiyyət kəsb etdiyini, Azərbaycan qanunvericiliyinə və beynəlxalq öhdəliklərə uyğun təşkil olunmuş seçkilərin azad və şəffaf şəkildə keçirildiyini bildirib.

**XQ**

# Sağlam rəqabət iqtisadi yüksəlişə meydan açır

(əvvəli 1-ci səhifədə)

Fərmanla müəyyən edilib ki, adıçəkilən agentlik antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, reklam (açıq məkanda reklam istisna olmaqla), standartlaşdırma, metrologiya, texniki tənzimləmə, uyğunluğun qiymətləndirilməsi, akkreditasiya, keyfiyyətin idarə edilməsi, istehlakçıların hüquqlarının müdafiəsi və istehlak bazarına nəzarət sahələrində dövlət nəzarətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Nazirlər Kabinetinə Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin əsasnaməsinin layihəsini, strukturu və işçilərinin say həddi barədə təkliflərini 2 ay müddətində, eləcə də qurumun yaradılması ilə əlaqədar normativ hüquqi aktların uyğunlaşdırılması ilə bağlı təkliflərini 3 ay müddətində hazırlayıb ölkə Prezidentinə təqdim edilməsi tapşırılıb.

Bundan başqa, Nazirlər Kabineti Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin balansındakı dövlət əmlakının yeni yaradılan agentliyin balansına verilməsini təmin etməli və Azərbaycan Prezidentinin 26 dekabr 2023-cü il tarixli "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanunun tətbiqi ilə bağlı fərmanında adıçəkilən Xidmət üçün nəzərdə tutulmuş maliyyələşmənin qalıq hissəsinin yeni yaradılan agentliyə ayrılmasını gerçəkləşdirməlidir.

Auditorlar Palatasının sədri, professor Vahid Novruzov dövlət başçısı İlham Əliyevin imzaladığı sözügedən fərmanla bağlı mediaya bildirib ki, sənədə əsasən, antiinhisar, haqsız rəqabət, dövlət satınalmaları, standartlaşma, uyğunluğun qiymətləndirilməsi, keyfiyyətin idarəedilməsi, istehlakçıların hüquqlarının müdafiə olunması, istehlak bazarlarına nəzarət və digər sahələrdə dövlət nəzarətinin, eləcə də tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılması qərara alınıb. Təbii ki, bu istiqamətlər içərisində mühüm önəm daşıyan ən əsas amil iqtisadiyyatda sağlam rəqabətin reallaşdırılmasına nail olmaqdır. Bazar iqtisadiyyatı şəraitində sağlam rəqabətin inkişafın və səmərəliliyin yüksəldilməsinin əsas cəhətlərindən biri olması inkar olunmaz fakt kimi qəbul edilib.

Yeri gəlmişkən, xatırladaq ki, istər yeni qəbul edilən Rəqabət Məcəlləsində, istərsə də "Rəqabətin inkişafı və inhisarçılıq fəaliyyətinin qarşısının alınmasına dair Milli Fəaliyyət Proqramı"da respublikamızda rəqabətə davamlı milli iqtisadiyyatın yaradılması, rəqabətlilik mühitinin təminində korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxışın diqqət mərkəzində saxlanılması kimi məsələlərə böyük əhəmiyyət verilib. Bundan başqa, adları çəkilən sənədlərdə istehlak bazarında rəqabət üstünlüyünün gerçəkləşdirilməsinə, eyni zamanda, müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsilə yüksəldilməsinə həlledici vasitə kimi yanaşılıb.

Onu da deyək ki, Prezident İlham Əliyevin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri"n ikisi məhz rəqabətin inkişafı problemlərini özlərində ehtiva edir. Burada şəffaflığın artırılması, haqsız rəqabətin qarşısının alınması, rəqabətə davamlılıq, sağlam rəqabət qaydalarının müəyyənləşdirilməsi, rəqabət mühitinin təmin edilməsi qarşıya mühüm vəzifələr kimi qoyulub.

Yeni sosial – iqtisadi çağırışlara cavab vermək, dayanıqlı və rəqabətqabiliyyətli iqtisadi inkişafı gerçəkləşdirmək, müasir tənzimləmə metodlarının tətbiqi zərurətindən irəli gələrək hazırlanan Rəqabət Məcəlləsində sahibkarların sağlam rəqabət şəraitində fəaliyyətinin reallaşdırılması önə çəkilib. Bundan başqa, məcəllədə kartel tipli əlaqələrin qarşısının alınması, təbii inhisar subyektlərinin fəaliyyətinə səmərəli nəzarətin təşkil edilməsi, haqsız rəqabət və hökmran mövqedən sui-istifadə hallarının aradan qaldırılması ilə bağlı məsələlərə dair tənzimləmə alətləri də diqqətdə saxlanılıb.



Rəqabət Məcəlləsində sahibkarlığın inkişafını stimullaşdıracaq digər məqamlar da diqqət çəkir. Bu məqamlar vergi, gömrük, dövlət satınalmaları və iqtisadi subyektlərlə qarşılıqlı əlaqədə olan digər dövlət sektorlarında şəffaflıq və ədalətliliyin təmininin, ilk növbədə, rəqabət mühitini gücləndirir. Bu həm də sahibkarlıq fəaliyyətinin qanun çərçivəsində qurulması, iqtisadiyyatın əsaslarının möhkəmlənməsi baxımından da zəruri şərtlərdən biridir. Çünki sağlam rəqabətli iqtisadiyyat həm xalqın rifah səviyyəsini yüksəldir, həm də xaricdən ölkəyə investisiya axınının miqyasını genişləndirir.

Beləliklə, yeni Rəqabət Məcəlləsinin tətbiqi ölkə iqtisadiyyatına, o cümlədən biznes imkanlarının səmərəliliyinə müsbət təsir göstərəcək, idxal-ixrac potensialını daha da gücləndirəcək. Digər tərəfdən bu, ölkədə monopoliyanın təsirlərinin aradan qaldırılmasını və bazar payının azaldılmasını şərtləndirəcək. Nəticə etibarilə Rəqabət Məcəlləsi respublikada rəqabət mühitinin daha da müsbət istiqamətə dəyişməsinə, onun liberallaşmasına əlverişli şərait yaradacaq. Bu isə qiymətlərin daha sabit qalmasını gerçəkləşdirəcək və sünni bahalaşmanın qarşısını alacaq.

Azərbaycan Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin yaradılmasını şərh edən iqtisadçı-ekspert Eldəniz Əmirovun sözlərinə görə, rəqabət mühitinin qorunması və ən əsası da təkcə inhisarçılara və rəqabəti pozan sahibkarlara qarşı deyil, həm də dövlət qurumlarının rəqabəti pozan davranışlarının qarşısının alınması üçün rəqabət orqanına daha yüksək səlahiyyətlər verilməli idi.

Artıq ölkə başçısı həmin qurumun əsasında birbaşa Prezidentə tabe olan Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi yaradıb. Süni qiymət artımlarının qarşısını almaq, haqsız rəqabəti və ədalətsiz bazar şərtlərini aradan qaldırmaq, idxal "monopoliyası" ilə mübarizə aparmaq, manipulyasiyaların və spekulyasiyaların qarşısını almaq və onlarla digər böyük işlər görmək məhz bu yeni agentliyin vəzifə öhdəlikləri olacaq.

# Qarabağ və Şərqi Zəngəzur dövlət investisiyası ilə dirçəlir

**Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpa-quruculuq işləri getdikcə sürətlənir. Artıq işğaldan azad olunmuş ərazilərimizdə həyat tədricən əvvəlki məcrasına qayıdır, düşmənin 30 il ərzində viran qoyduğu torpaqlarda möhtəşəm yaşayış kompleksləri inşa olunur, yeni kənd və qəsəbələr salınır. Bir sözlə, illərlə əsl sahibinə həsrət qalan torpaqlarımızda indi infrastruktur yenilənir, dədə-baba yurdlarına qayıdacaq soydaşlarımızın rahat yaşaması, işlə təmin olunması və onların təhlükəsizliyi üçün hər cür şərait yaradılır.**



Ötən müddətdə işğaldan azad olunmuş ərazilərimizdə insanların rahat və firavan yaşayışın təməlinin qoyulması üçün mühüm infrastruktur layihələri icra olunub. Azərbaycan bütün bu işləri təkbaşına, heç bir ölkədən və beynəlxalq maliyyə qurumundan yardım istəmədən, öz gücü ilə həyata keçirir. Ölkəmizin maliyyə gücünün artması bərpa və quruculuq işləri üçün daha çox vəsait ayırmağa imkan yaradır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə Qarabağ iqtisadi rayonuna 2 milyard 254,4 milyon manat investisiya qoyulub. Bu da 2022-ci illə müqayisədə 19,5 faiz çoxdur. Ümumi investisiyanın 747 milyon 332 min manatı Füzuli, 626 milyon 67 min manatı Şuşa, 589 milyon 564 min manatı isə Ağdam rayonlarının payına düşüb.

Hesabat dövründə Qarabağ iqtisadi rayonuna daxil olan Ağcabədiyə 76 milyon 613 min manat, Bərdəyə 10 milyon 647 min manat, Xocalıya 5 milyon 304 min manat, Xocavəndə 112 milyon 88 min manat, Tərtərə isə 86 milyon 151 min manat sərmayə ayrılıb. Ötən il Xankəndi şəhərinə isə ilk dəfə 31,5 min manat sərmayə yönəldilib.

Bununla yanaşı, ötən il Şərqi Zəngəzur iqtisadi rayonuna 4 milyard 11 milyon 125 min manat investisiya qoyulub. Bu isə 2022-ci illə müqayisədə 80,7 faiz çoxdur. Ümumi sərmayənin 1 milyard 550 milyon 708 min manatı Laçın, 671 milyon 783 min manatı Cəbrayıl, 919 milyon 85 min manatı Kəlbəcər, 280 milyon 964 min manatı Qubadlı, 587 milyon 821 min manatı isə Zəngilan rayonlarının payına düşüb. Ümumilikdə isə, bərpa-quruculuq işlərinin ilk vaxtlarından etibarən Qarabağ və Şərqi Zəngəzurda həyatın əvvəlki məcrasına qaytarılması üçün dövlət büdcəsindən, təqribən, 12 milyard manata qədər vəsait xərclənib. 2024-cü ilin dövlət büdcəsindən isə bu məqsədlə daha 4 milyard manat vəsait ayrılıb.

Azərbaycan Mərkəzi Bankının məlumatına əsasən, cari il iyulun 1-dək Qarabağ iqtisadi rayonu üzrə verilmiş kreditlərin həcmi 456 milyon 441 min manata çatıb. İlin əvvəlində isə bu məbləğ 404 milyon 983 min manat olub. Beləliklə, ilin əvvəlindən iqtisadi rayon üzrə kredit portfeli 51 milyon 459 min manat və ya 13 faiz çoxalıb. Qarabağda kreditlərin böyük hissəsi manatla verilib və həcm 455 milyon 627 min manat, orta faiz dərəcəsi isə 18,87 faiz olub. Bu da özəl sektorun bərpa və yenidənqurma işlərinin daha böyük sürətlə aparılmasında yaxından iştirakına əlverişli imkanlar yaradır.

Yeri gəlmişkən, ölkə başçısı bu ərazilərə hər yeni səfəri zamanı yeni hədəflər müəyyənləşdirilir, böyük layihələrin icrasına start verilir. Hazırda Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərinin timsalında dünya şəhərsalma təcrübəsinin yeni, Azərbaycan modeli yaradılır. Bütün bunlar dünya ictimaiyyəti tərəfindən müsbət amil kimi dəyərləndirilir. Fevralın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisdə keçirilən andiçmə mərasimində ki nitqində bu vacib məqama toxunaraq bildirib: "Deyə bilərəm ki, burada görülən işlər azad edilmiş torpaqlara gələn hər bir qərəzsiz xarici qonağı valeh edir. Çünki bu dərəcədə dağıntılardan sonra bu sürətlə bərpa işlərinin aparılması, yəqin ki, tarixdə görünməmiş bir hadisədir".

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində, 140 minə yaxın keçmiş məcburi köçkünün öz dədə-baba yurdlarında məskunlaşdırılmasının təmin olunması nəzərdə tutulur. Andiçmə mərasimindəki nitqində bu vacib məqama toxunan ölkə Prezidenti keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesinin uğurla davam etdiyini vurğulayaraq deyib: "Bu günə qədər təxminən 5400 keçmiş köçkün artıq beş yaşayış məntəqəsinə göndərilib, orada yerləşdirilib və bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq. Bizim planımız azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərə və 15 kəndə 20 min keçmiş köçkünü yerləşdirməkdir".

Bu məqsədlə, Qarabağ və Şərqi Zəngəzurda, ümumilikdə, 100 yaşayış məntəqəsinin planlaşdırılması və yenidən qurulması planlaşdırılıb. Bunların 9-u şəhər, 91-i isə, əsasən, qəsəbə və kəndləri əhatə edir. Ümumilikdə isə, Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq və planlaşdırma ilə bağlı işlərin 2024–2025-ci illərdə başa çatdırılması nəzərdə tutulur. Artıq bir çox şəhər və kəndlərdə inşaat işləri başlanılıb. Böyük Qayıdış proqramının birinci mərhələsi isə 2026-cı ilin sonunda başa çatdırılacaq.

İşğaldan azad olunmuş ərazilərdə həyata keçirilən sürətli bərpa-quruculuq işləri, müasir infrastrukturun yaradılması, yaşayış məskənlərinin salınması isə keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasına səbəb olur. Əhali məskunlaşması ilə yanaşı, bu ərazilərdə məşğulluğun təmin edilməsi də xüsusi diqqətdə saxlanılır. Bu da Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni iş yerlərinin yaradılması prosesini sürətləndirir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2023-cü ildə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 142 sənaye müəssisəsi fəaliyyət göstərib ki, bu, 2022-ci illə müqayisədə 25,7 faiz çoxdur. Sənaye müəssisələrinin 82,4 faizii və ya 117-si Qarabağ, 17,6 faizi və ya 25-i isə Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb.

Eyni zamanda, hesabat dövründə işğaldan azad edilmiş ərazilərdə sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı 13,1 faiz artaraq 1218-ə çatıb. Fərdi sahibkarlıq subyektlərinin sayı Qarabağ iqtisadi rayonunda 11,6 faiz artaraq 1070, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 25,4 faiz artaraq 148 olub.

Komitənin məlumatına görə, ötən il işğaldan azad edilmiş ərazilərdə istehsal olunmuş sənaye məhsulunun dəyəri 298 milyon 679 min manat, o cümlədən Qarabağ iqtisadi rayonunda 274 milyon 772 min manat, Şərqi Zəngəzur iqtisadi rayonunda isə 23 milyon 908 min manat təşkil edib. Bu da, 2022-ci illə müqayisədə müfaviq olaraq 48,6 faiz, 41,8 faiz və 3,4 dəfə çoxdur.

# Azərbaycan qazı Xorvatiyada da alovlanır

**Sentyabrın 1-dən Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Xorvatiyaya qaz təchizatına başlayıb. Bu barədə məlumat qurumun rəsmi saytında (socar.az) yer alıb. Bildirilib ki, Azərbaycan və Xorvatiya hökumətləri arasında mövcud olan uğurlu əməkdaşlıq nəticəsində qış mövsümü ərəfəsində Azərbaycan qazının PPD şirkəti və MET Qrup vasitəsilə Xorvatiyaya çatdırılması ölkəmizin Avropanın etibarlı enerji tərəfdaşı və qaz təchizatçısı kimi rolunu daha da möhkəmləndirir.**




Azərbaycan ilə Xorvatiya arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addım olan bu hadisə SOCAR-ın Avropa daxili bazarları üçün enerji mənbələrinin şaxələndirilməsi üzrə öhdəliyinə sadiqliyini nümayiş etdirməklə qitənin enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir.

Beləliklə, Xorvatiya Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya və Sloveniya ilə birlikdə Azərbaycan qazını alan 10-cu ölkə olub.

# Macarıstan ölkəmizdən "mavi" səhmlər alıb

**Macarıstanın "MVM Group" şirkəti "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətindən "Şahdəniz" qaz yatağının işlənməsi layihəsində 5 faiz və "Azerbaijan Gas Supply Company Limited" (AGSC) şirkətindən "South Caucasus Pipeline Company"də 4 faiz pay üçün satınalma prosesini avqustun 30-da tamamlayıb.**

Bununla bağlı yayılan açıqlamada bildirilir ki, qeyd edilən satınalma ilə "MVM Group" beynəlxalq mövcudluğunu əhəmiyyətli dərəcədə genişləndirəcək, şirkətin təbii qazın dəyərinin yaradılması zəncirindəki mövqeyini daha da şaxələndirəcək. Məlumatda sövdələşmənin Avropa İttifaqının qaz tədarükünün şaxələndirilməsi səylərinə, eləcə də milli enerji strategiyasına və "MVM Group"un inkişaf strategiyasına tam uyğun olduğu vurğulanır.

"İstismara verilmədən bəri "Şahdəniz" yatağından 225 milyard kubmetrdən çox qaz və 380 milyon barel kondensat hasil edilib. "Şahdəniz" qaz ehtiyatlarına görə dünyada ən böyük yataqlardan biridir. O, hər il təxminən 29 milyard kubmetr qaz və təxminən 60 milyon barel kondensat hasil etmək gücündədir", – deyə açıqlamada qeyd olunur.

Xatırladaq ki, "MVM Group"un "Şahdəniz" layihəsində 5 faiz və SCPC-də isə 4 faiz pay almasına dair saziş bu il iyunun 5-də Bakı Enerji Həftəsi çərçivəsində imzalanıb. "MVM Group"un baş icraçı direktoru Karoli Matray Bakı Enerji Forumunda çıxış edərək bildirmişdi ki, bu sövdələşmə "MVM Group"un strategiyasında ən iri sazişdir və qaz tədarükünün şaxələndirilməsi və ölkənin bir mənbədən asılılığının azaldılması prosesində mühüm elementdir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# İstiqlal məfkurəsini yaşadan mühacirət poeziyası

**Azərbaycan Xalq Cümhuriyyəti (1918–1920) süqut edəndən sonra mühacir ömrü yaşamağa məcbur olan qələm sahiblərimizin yaradıcılığı vaxtaşırı tədqiq olunsa da, bu sahədə müəyyən boşluqlar hələ də var və araşdırmaçıların hər bir səyi, tapıntısı maraqla qarşılanır. Bu baxımdan mühacirət poeziyası nümunələri məcmuəsinin "İstiqlal uğrunda" adı ilə toplu halında çap edilməsi təqdirəlayiq olub.**

Sözügedən kitab işıq üzü görən zaman onu tapıb oxuya bilməsəm də, bu günlərdə nəşrin redaktoru – Azərbaycan Yazıçılar Birliyinin poeziya seksiyasının rəhbəri şair İbrahim İlyaslı toplunun bir nüsxəsini mənə hədiyyə etdi. Oxuyub xeyli duyğulandım və ürək sözlərimi qələmə almaq istədim.




"İstiqlal uğrunda" almanaxı ilk dəfə 1928-ci ildə Türkiyədə ərəb hürufatı ilə işıq üzü görüb. Azərbaycanın bolşevik əsarəti ilə barışmayıb tərki-vətən olmuş, öz əqidələrindən dönməyərək, mücadilələrini poeziya dili ilə davam etdirmiş mühacirlərimizin həmin əsərlərinin, təxminən, 1 əsr sonra Bakıda latın qrafikasında yenidən nəşr edilməsi, doğrudan, təqdirəlayiq haldır. Kitabın yeganə orijinalını tapıb "Qələmnəşr"ə təqdim edən Əhməd Dərgahquliyevə və çapını reallaşdıranlara – transliterasiyasını hazırlayıb yeni redaktə ilə oxucuların istifadəsinə verən şair-tədqiqatçı Hafiz Rüstəmə, ideya müəllifi İbrahim İlyaslıya minnətdarlıq hissi ilə bildirək ki, toplu, mühacirət ədəbiyyatı ilə maraqlanan, eləcə də poeziya vurğunu olan oxucular üçün dəyərli vəsaitdir və gənclərin milli-vətənpərvərlik tərbiyəsi baxımından önəmlidir.

Qeyd etməyə borcluyuq ki, sovet hakimiyyətinin qadağaları sərt olsa da, Azərbaycanda Abdulla Şaiq, Əhməd Cavad, Əliabbas Müznib, Səməd Mənsur, Cəfər Cabbarlı, Umgülsüm, Gültəkin (Əmin Abid), Davud, Əli Yusif, Əbdürrəhman Dai və başqalarının Cümhuriyyət zamanında artıq formalaşmaqda olan milli ruhlu şeirləri müəyyən mənada sandıq ədəbiyyatına çevrilsə də, müəlliflərin bolşevik quruluşu ilə barışmazlığının təzahürü idi.

Bu kitab isə qürbətdə istiqlal eşqi ilə yanan şair qəlblərinin həyəcanlı döyüntülərindən ibarətdir. Onlar istibdada qarşı etiraz səslərini ucaltmaqdan çəkinməyib, millətin ruhunda parlayan istiqlal atəşini sönməyə qoymayıblar. Toplunun qardaş ölkəyə aid olan ilk çapını ozamankı Milli Azərbaycan Nəşriyyatı həyata keçirib. Ön sözdə qeyd edilib ki, onun tərtibi Kamal bəy adlı vətənpərvər bir soydaşımıza aiddir. Şeirlər, əsasən, mühacirət mətbuatı olan "Yeni Qafqasya" və "Azəri türk" məcmuələrindən seçilərək, ipə-sapa düzülüb. Məcmuə "Bayrağı təbrik", "İstiqlal məfkurəsi", "Vətən sevgisi", "Türk qardaşlığı", "Qəhrəman mücahidlərə", "Şanlı istiqlal mücadiləsi", "Rəmzi parçalar", "Mücadilə şərqiləri", "Milli cihad cazibələri" kimi 9 bölümdən ibarətdir.

Hürriyyətə susamış ruh çırpıntıları, üçrəngli bayrağımıza sevgi etirafları, Vətən gözəlliklərinin tərənnümü mühacirət şairlərinin imanının heç də zavala uğramadığına dəlalət edir. Məsələn, şair Sənanın "Vətən sevgisi"nə nəzər salaq:

**Saçar fırtınalar, atəşlər, qanlar,**
**Qanımda qərq olar azğın düşmanlar.**
**İstiqlal uğrunda qanlı bir kəfən**
**Geymişəm, ölsəm də, yaşasın Vətən!**

Məcmuədə Gültəkin (Əmin Abid), Azərizadə, Umgülsüm, H.Həmidzadə, Ə.Dai, S.Bədri, Məsud Səfvət, Ə.Yusif, Əli Usta, Nafe Şükri, İ.Zöhdi və başqa müəlliflərin poetik nümunələri toplanıb. Pessimist əhval da var, istiqbala inam da. Həmin imzaların çoxu ədəbi tənqidin nəzərindən yayınmış olsa da, M.Ə.Rəsulzadə, Ə.Cəfəroğlu, Kamal bəy və başqalarının məqalələrində mühacirət poeziyası ilə bağlı, ilk növbədə, Gültəkinin yaradıcılığından danışıldığı və ona qiymət verildiyi məlumdur. Ümumiyyətlə isə şeirlərin əksəriyyəti klassik mühacirətin ən yaxşı nümunələri kimi dəyərləndirilə bilər.

Topluya Əhməd Cavadın 10 şeiri də daxil edilib. Bunlar "Milli bayrağımıza", "Nədən yarandın?", məşhur "Göy göl" və "Sən ağlama", eləcə də "Al bayrağa", "Mənəm", "Bismillah", "Qalx", "Bir gül əkdim", "Bir gün" şeirləridir. Kitab haqqında fikirlərini bölüşən filologiya elmləri doktoru Bədirxan Əhmədli təəssüflə yazır ki, o zaman həm kitaba, həm də elə Əhməd Cavada qarşı ideoloji kampaniya başlanmış, tənqidi məqalələr dərc edilmişdir. Onu da deyək ki, Türkiyədə çıxmış məcmuədə Əhməd Cavadın yazmış olduğu "Azərbaycan" himni müəllifsiz dərc edilib. Bəlkə də, Sovet Azərbaycanında yaşayıb işləyən şairi təqibdən yayındırmaq məqsədilə belə edilib.

Baxın, Umgülsümdən misal gətirdiyimiz aşağıdakı təəssüf və etiraz motivləri Bakıdakı hakimiyyət dairələrinin qəzəbinə və cəza tətbiqinə səbəb olmazdımı?

**Yazıq səni, bayrağım,**
**endirdilər öyləmi?**
**Səni yıxıb devirən o zəhərli ruzigar,**
**O haqq deyən haqsızlar, vəhşilər,**
**tanrısızlar,**
**Yanar ocağını da söndürdülər,**
**öyləmi?**

Topluda Azərinin "İnqilab nəğmələri və yaxud həbsxana şeirləri" ("Yeni Qafqasya"dan) və M.B.Məmmədzadənin "Əli Usta və şeirləri" ("Azəri Türk"dən) məqalələri də dərc edilib. Həmin yazılarda istiqlal poeziyasının təhlili verilir və poetik parçalar da yer alır. Təhlil edilən, müəllifləri məlum olmayan şeirlər ədəbiyyatşünaslığımız üçün tamamilə yenidir.

..."İstiqlal uğrunda" kitabının latın qrafikasında nəşri, qərib şairlərimizin şeirlərinin yenidən ədəbi dövriyyəyə daxil edilməsi mühacirət poeziyasının tanıdılması yönümündə atılan bir addım kimi önəmlidir.

***Ə.DOSTƏLİ***
***XQ***

# Araz üstündən canlı telekörpü

**Azərbaycan milli teleradiosu hər zaman mədəniyyət, incəsənət və ədəbiyyatımızın təbliğatında böyük rol oynamışdır. Bu missiyanı həyata keçirənlər arasında televiziyada formalaşmış diktor məktəbi təmsilçilərinin də mühüm xidməti olub. Onlardan biri uzun illər Azərbaycan Televiziyasında çalışmış Xalidə Əhmədovadır.**

Bu günlərdə "Xalq qəzeti"nin qonağı olan Xalidə Əhmədova (Xalidə Gözəl) 1979-cu ildə M.Əliyev adına İncəsənət İnstitutunu bitirib.1981-ci ildə Azərbaycan Dövlət Televiziyasında diktorluq müsabiqəsinə müraciət edənlər arasından seçilib.



1992-ci ilədək Azərbaycan Dövlət Televiziyasında fəaliyyət göstərib. Bir çox proqramların hazırlanması və geniş tamaşaçı auditoriyasına təqdim edilməsində böyük rol oynayıb. 1992–2005-ci illərdə Xalidə Gözəl Türkiyə Dövlət Televiziyasının Azərbaycan bölümündə çalışıb.

**– Milli televiziyadakı fəaliyyətinizi uğurlu karyera başlanğıcı hesab etmək olarmı?**

– Əlbəttə. Seçimlərdən qalib çıxmaq özü bir uğur idi. İlk dəfə ekranda kamera qarşısına çıxıb "Xalq yaradıcılığı" verilişini aparmağımla uğur karyeram başlandı. Bölgələrdən gələn bədii özfəaliyyət kollektivlərini həftədə bir dəfə tamaşaçılara təqdim edirdik. Onların səhnə üçün hazırlanması və səviyyəli şəkildə tamaşaçılar qarşısına çıxmasına böyük diqqətlə yanaşırdıq. Ümumiyyətlə, o dövrdə televiziya anlayışı möhtəşəm bir nəsnə idi. Açığı, elə səviyyə də indiki TV kanalları ilə müqayisədə xeyli fərqli idi. Camaat ekrana müqəddəs məkan kimi baxırdı. Və xalqın içindən çıxan qabiliyyətli, istedadlı insanların təqdimatı da bunun hesabına mötəbərlik qazanırdı.

Ümumiyyətlə, o dövrdə zahiri görünüşə, səsə, dilin, diksiyanın qüsursuz olmasına çox ciddi fikir verilirdi. İstər diktor-aparıcı, istərsə də musiqi ifaçıları, müğənnilər seçilən zaman, bütün bunlar mütləq nəzərə alınırdı. Nəticədə, həm diktorlar, həm də istedadlı ifaçılar az bir vaxtda populyarlaşır, ekranların, səhnələrin parlaq simasına çevrilir, xalq məhəbbəti qazanırdılar.

Həmin illərdə Xalidə xanım həm də "Xəbərlər" proqramının aparıcısı idi. SSRİ-nin tənəzzül dövründə, azadlıq hərəkatının, milli ruhun gücləndiyi vaxtlarda əhalinin bir gözü teleekranda olurdu, hamı meydan mitinqlərində baş verənləri izləyirdi. Düşüncələrə hakim kəsilən bir hiss var idi ki, tezliklə imperiyanın buxovlarından azad olaq.

**– Belə bir dönəmdə AzTV-nin qadın diktorunun Azadlıq meydanında tribunadan xalqa səslənməsi, hərəkata dəstək olması böyük hünər idi. Xalidə xanım bunu bacarmışdı…**

– SSRİ-nin süqutu ərəfəsində Azərbaycan xalqının siyasi oyanışı pik həddə çatmışdı. Meydan qaynayırdı. Mənim içimdə daim bir azadlıq duyğusu var idi və bu proseslərdə həmin duyğu məni meydan hərəkatına cəlb etdi. O dövrdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Elşad Quliyev idi. Onu da xüsusi qeyd etmək istərdim ki, Elşad müəllim televiziya işini yüksək səviyyədə bilən peşəkar olmaqla yanaşı, milli ruhlu insan idi. Əvvəlcə niyyətimi ona bildirdim. Bir söz demədi. Azadlıq meydanına daxil olduğum zaman orada, az qala, yarım milyon insan var idi. Haqq işimiz naminə hamı bir araya gəlmişdi, hər kəsə azadlıq ruhu hakim kəsilmişdi. Mən tribunada görünəndə, sanki, bir canlanma yarandı, hamı mənə irəli çıxıb danışmaq üçün yol verdi. Xalq şairi Sabir Rüstəmxanlı məni təqdim etdi. Atif Zeynallının "Azərbaycanam" şeirini söylədim.

**Səsim şimşək, ildırım**
**Nəfəsim tufan olub.**
**Babəkəm, Koroğluyam,**
**Nəbiyəm, Səttarxanam!**
**Mən odlar yurduyam –**
**Azərbaycanam!**

Ölkəmizin azadlığı üçün ayağa qalxmış millətin içində kimlər yox idi? Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı, Xəlil Rza Ulutürk və başqaları… O anlar bizim birliyimizi nümayiş etdirən bir tarix idi.

**– O birliyin nəticəsidir ki, bu gün azad ölkələr sırasında yer almışıq…**

– Bəli, meydan hərəkatı dağıdılsa da, başımıza 20 Yanvar müsibəti gətirilsə də, xain ermənilərin torpaq iddiaları baş qaldırsa da, 70 il əsarətində qaldığımız bir imperiyanın tərkibindən çıxaraq öz azadlığımıza qovuşduq. 1992-ci ildə Naxçıvanda görkəmli siyasi və dövlət xadimi ulu öndər Heydər Əliyevlə olan görüşüm, Türkiyə televiziyası üçün ondan aldığım müsahibə daim mənim həyatımın ən mənalı anı olaraq qalacaq. Ali Baş Komandanımız, Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin uzaqgörən siyasəti, qüdrəti sayəsində, Ordumuzun gücü ilə Qarabağımızı xilas etmişik.

**– Həyatınızın Türkiyə səhifələri barədə nə deyə bilərsiniz?**

– Mən 1990-cı il yanvar ayının ilk günlərində qardaş ölkəyə yola düşdüm. Yanvar faciəsini Türkiyə televiziyasından eşitdim. Boş dayanmadan, siyasi fəaliyyətə başladım. Ankarada insanlar ayağa qalxmışdılar. Qarsdan, İğdırdan olan azərbaycanlılar sakitləşə bilmirdilər. Mən də onların aksiyalarına qoşulmuşdum. Anadolu meydanında (Tandoğan meydanı) SSRİ-nin dövlət bayrağını yandırıb, heykəlin zirvəsində Azərbaycan bayrağını yüksəltmişdim. Onu da qeyd edim ki, SSRİ-nin bayrağını meydanda yandırmağım barədə türk kanallarında süjetlər verildi. Az bir vaxtda orada hamı məni tanıdı, məndən müsahibələr alırdılar. Günlərin birində qapım döyüldü, "Hörmətli Süleyman Dəmirəl sizi görmək istəyir" dedilər.

Görkəmli siyasi xadim, Türkiyə Cümhuriyyətinin prezidenti olmuş Süleyman Dəmirəllə görüşüm həyatımda yeni səhifə açdı. Ailəmlə birgə Ankaraya köçdüm və orada ictimai-siyasi fəaliyyətə başladım. Fəaliyyətim sonra Qars və İğdır bölgəsində oldu. 15 ilə yaxın Türkiyədə yaşadıq, TRT-nin Azərbaycan bölümündə fəaliyyət göstərdik. Həyat yoldaşım, tanınmış televiziya diktoru Davud Əhmədovla birgə Azərbaycanımızın təbliğatında böyük rol oynadıq. Doğrudan da, Türkiyədə yaşadığımız, fəaliyyət göstərdiyimiz illər ömrümüzün ən gözəl dövrünü əhatə edir…

Bəli, vətənpərvər ruhda yaşayan, özündən daha çox millətini düşünən, daim dövlətçilik ideyalarına sədaqətli olan Xalidə xanımın keçdiyi həyat yolu keşməkeşli, həm də mənalı olub. Çox təəssüf ki, bir vaxtlar tamaşaçıların sevimli diktoru olmuş Xalidə Əhmədova Türkiyədən Vətənə döndükdən sonra bir növ unudulub. Həyat yoldaşı diktor Davud Əhmədov 2015-ci ildə – 74 yaşında qəfil dünyasını dəyişib. Xalidə xanım işsizlik problemi ilə üzləşib, hazırda təqaüdçüdür və müəyyən maddi çətinlikləri də olur. Amma Vətənə, dövlətə sevgisi zərrə qədər də azalmayıb.

***Xədicə QİYAS***

# Xeyirxahlıq zirvəsində yaşayan Hacı

## *Zeynalabdin Tağıyev ehtiramla anıldı*





**Neft milyonçusu, böyük messenat Hacı Zeynalabdin Tağıyev xalqın yaddaşında yaşayan şəxsiyyətlərdəndir. Düz bir əsr öncə – 1924-cü il sentyabrın 1-də Mərdəkandakı bağ evində vəfat edən xeyriyyəçi Axund Əbu Turab Ağanın məqbərəsində dəfn edilib, amma bu gün də millət atası kimi hörmətlə xatırlanır.**

Bakının Mərdəkan qəsəbəsində unudulmaz xeyriyyəçinin anım mərasiminə tanınmış elm xadimləri, ziyalılar, sakinlər toplaşmışdılar. Tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova tədbiri açaraq, H.Z.Tağıyevin hələ sağlığında gördüyü nəcib işlərdən, millət atasının hamıya nümunə olan şəxsi keyfiyyətlərindən danışıb.

Milli Azərbaycan Tarixi Muzeyinin direktoru, akademik Nailə Vəlixanlı vurğulayıb ki, bu gün Hacı Zeynalabdinin həyat yolu xalqa xidmət nümunəsidir, tarix muzeyi onun irsini araşdırıb təbliğ edən əsas elmi və mədəni məkandır. O, təkcə vəfatı günündə deyil, hər zaman xatırlanmalıdır. Tağıyev irsinin tədqiqatçısı, tarix elmləri doktoru Fərhad Cabbarov bildirib ki, M.Ə.Rəsulzadə İstanbulda "Yeni Qafqasiya"da çap olunan məqaləsində yazırdı: "Xalqın yaddaşında, qəlbində H.Z.Tağıyev həmişə böyük şəxsiyyət kimi qalacaq. Çünki H.Z.Tağıyev xalqı üçün o qədər böyük işlər görüb ki, xalq onu unutmayacaq".

ADA Universitetinin rektoru, fizika-riyaziyyat elmləri doktoru Hafiz Paşayev təhsil sahəsində H.Z.Tağıyevin xidmətlərinin əvəzsiz olduğunu söyləyib: "O, olmasaydı, bu sahədə o zamanla bu günün arasında böyük uçurum olardı. Məhz bizim tələbələrin də təşəbbüsü idi ki, H.Z.Tağıyevin vəfatının 100 illiyini ehtiramla yad edək. ADA Universitetinin xüsusi proqramı da "Hacı Zeynalabdin Tağıyev mükafatı"dır. Biz tələbələri qruplara bölürük. Hər il ictimai əhəmiyyətli lahiyələri də tələbələrimiz özləri təklif edirlər. Məsələn, yetim uşaqlara diqqət, yol qaydaları və s. lahiyələri də 4–5 ay ərzində tələbələr özləri həyata keçirirlər. Mayın 2-də isə həmin layihələr təqdim olunur, tələbələr mükafatlandırılır. H.Z.Tağıyevin evi ilə bağlı layihə də olub. Təqdimat mərasimi də H.Z.Tağıyevin Mərdəkandakı bağ evində keçirilib. Həmin mərasimin həmişə burada keçirilməsi qərara alınıb".

"Aydınlığa doğru" Milli-Mənəvi Dəyərlərin Qorunması İctimai Birliyinin sədri Solmaz Əmirli çıxışında Hacı Zeynalabdin şəxsiyyətinin gənclərə tanıdılması məqsədilə 8 ali məktəbdə tədbirlərin təşkil edildiyini diqqətə çatdırıb. Buzovna Cümə məscidinin axundu Hacı Soltan Əlizadə qeyd edib ki, 1993-cü ildə Kərbəlada olarkən ona oradakı böyük çılçırağın neft milyonçusu H.Z.Tağıyev tərəfindən hədiyyə olunduğunu söyləyiblər. Çox illər keçsə belə, Hacının bu hədiyyəsi unudulmayıb. Qəsəbə ağsaqqalı Altay Mansurov, Əməkdar mədəniyyət işçisi Müsəllim Həsənov böyük messenatın xatirəsinə bəslənən böyük ehtiramı təqdir ediblər. AYB-nin üzvü, şair Mahcamal Babayeva isə ona həsr etdiyi şeiri söyləyib.

Tədbirin sonunda H.Z.Tağıyevin nəticəsi Nazim Abdullayev ailəsi adından bütün iştirakçılara təşəkkür edib.

***Təranə CƏBİYEVA***

# Milli xalçamızın "Malıbəyli"si



**Milli Xalça Muzeyində kəsim mərasimi keçirilən yeni "Malıbəyli" xalçası orijinala tam uyğunluğu, rəng harmoniyası və mükəmməl toxunuşu ilə insanı valeh edir. 19-cu əsr Qarabağ xalçaçılıq məktəbinin Şuşa qrupuna aid olan nadir mədəniyyət incisinin muzeydə qorunan nüsxələrinin çeşniləri əsasında, klassik "Svastika" və "Bulud" elementləri saxlanmaqla toxunan bu təzə xalça da "sələf"ləri kimi göz oxşayır.**

Yeni toxuculuq məmulatı – xalçaçı rəssam Sevinc Əliyevanın eskiz müəllifi olduğu sənətkarlıq nümunəsi "Malıbəyli" xalçasının replikası, yəni kopyası, yeni təsviri formasıdır. Xalçanı texniki çeşni əsasında Gülxar Soltanova toxuyub. Kəsim mərasimini xeyli seyrçi, o cümlədən xarici qonaqlar da izləyirdi. Bir neçə dəqiqə davam edən proses maraqlı olduğu qədər də həyəcanlı idi. Mədəni irsimizin daha bir sənət nümunəsi ilə zənginləşməsi hər kəsi duyğulandırırdı. Sözün əsl mənasında, incə ornamentləri, zərif və nəfis naxışları ilə heyranlıq doğuran bu nümunə milli xalça sənətimizə növbəti ərməğan idi.

**Xalçanın toxunuşu barədə bilgi verən Gülxar Soltanova dedi:**

– Xalçaçılıq sənəti bizə nənələrimizdən miras qalıb. Mən də ömrümün xeyli ilini bu sevimli sənətə vermişəm. İndiyədək neçə-neçə xalça toxumuşam. Gördüyünüz bu xalçanın toxunması 3 ay çəkib. Bu işin çətin, eyni zamanda, çox maraqlı tərəfləri var. Toxuma prosesi yüksək peşəkarlıq və diqqət tələb edir. Gərək elə edəsən ki, bir ilmə belə yanlış düşməyə, ümumi kompozisiya bitkin ola. Bu çeşnidə xalçalar əjdahalı xalçalardan bəhrələnməklə yaradılıb. Zaman keçdikcə, stilizasiyaya uğrayıb. Təqdim olunan xalçanın ara sahəsində əjdahanı xatırladan "bulud" təsviri verilib. Baxanda XIII–XIV əsrlər Azərbaycan incəsənətində geniş yayılmış uyğur türklərinə məxsus dekorativ elementləri xatırladır.

**Xalçaçı rəssam Sevinc Əliyeva da yeni nümunənin özəlliklərindən danışdı:**

– Özünəməxsus rəng çalarları və naxışları ilə seçilən bu dəyərli xalçalar Şuşa rayonunun Malıbəyli kəndinin toponimikasından ad alıb. Xalçanın orta sahəsinin kompozisiyasını qədim qel tayfalarının etnoniminə aid komponentlər bəzəyir. Bu da ona dəlalət edir ki, ötən əsrlərdən etibarən, bulud təsviri və Çin-uyğur incəsənətinin dekorativ elementləri zaman-zaman Azərbaycan xalq incəsənətinə daxil olub. Milli sənətlərimizi zənginləşdirən bu elementlərin tətbiqi bənzər yerli ictimai şərtlərlə, dini inanclarla və əhalinin həyat tərzi ilə bağlıdır.

Onu da qeyd edək ki, "Malıbəyli" xalçalarının yerliyi (fonu) qırmızı rəngdə olduğundan, toxunma zamanı istifadə edilən yunun 40 faizi də həmin rəngə boyanırdı. Bu xalçalar çox vaxt kiçik və orta ölçülərdə toxunub. Bəzi hallarda böyük ölçüdə olanlara da rast gəlinib. Bu xalçaların hər kvadratmetrində 140–180 min ilmə olur, xovun hündürlüyü 7–9 mm təşkil edir.

Xalça kəsimi mərasimində bir daha şahidi olduq ki, qədim köklərə malik Azərbaycan xalçaçılıq sənəti ölməzdir və onun yaşadılmasında Milli Xalça Muzeyinin də xidmətləri böyükdür.

***Ceyhun ALIŞLI***
***XQ***

# Gürcüstan: hakim partiya kilsəyə üz tutur

**1990-cı illərin əvvəllərində Gürcüstanda pravoslavlığın və kilsənin dirçəlişi başladı. Həmin çətin dövrlərdə din SSRİ-nin dağılmasından sonra yaranmış ideoloji boşluğu doldururdu. Gürcü Pravoslav Kilsəsi ölkənin ən nüfuzlu və zəngin qurumuna çevrilmişdi. Kilsə siyasi və ictimai həyatın bütün sahələrinə müdaxiləyə cəhd edir, lakin bəzi sahələrdə, xüsusilə vətəndaş cəmiyyəti tərəfindən müqavimətlə üzləşirdi.**



İstənilən halda Gürcü Pravoslav Kilsəsi ölkədə böyük nüfuz sahibidir. Hazırkı hakimiyyət onunla hesablaşmalı olur. Dövlətlə kilsə arasında münasibətlər isə qarşılıqlı maraqlara əsaslanır – kilsə hökuməti dəstəkləyir və bunun müqabilində iqtisadi dividendlər gözləyir. Tanınmış ilahiyyatçı, Gürcü Tolerantlıq Mərkəzinin rəhbəri Beka Mindiaşvili deyir ki, müstəqillik illərində gürcü hökumətləri kilsənin siyasi cəhətdən möhkəmlənməsinə, sosial cəhətdən nüfuzlu quruma çevrilməsinə töhfə verib. Bu səbəbdən istər yerli, istərsə də parlament seçkilərində iqtidar kilsədən dəstək gözləyir. Siyasətçilər üçün isə patriarxa yaxın olmaq, ikona və şamlar fonunda poza vermək seçicinin ürəyinə gedən ən qısa yol və uğurlu karyeranın təminatı sayılır.

İqtidardakı "Gürcü Arzusu–Demokratik Gürcüstan" partiyasının son addımları da buna hesablanıb. Gürcüstan hökuməti Gürcüstan Pravoslav Kilsəsinin rəhbərliyinə ölkədə pravoslavlığın dövlət dini elan olunması təklifi ilə müraciət edib. Bu barədə çərşənbə günü yerli jurnalistlərə Patriarxlığın ictimaiyyətlə əlaqələr xidmətinin rəhbəri Andria Caqmaidze bildirib. O deyib ki, hazırda Patriarxlıq hökumətin bu təklifini müzakirə edir.

Onun sözlərinə görə, son vaxtlar hökumət milli dəyərlərin və adət-ənənələrin qorunması xəttinə, sülh siyasətinə sadiqdir və kilsə üçün də çox işlər görür: "Hakimiyyət kilsənin rolunu və statusunu daha da gücləndirmək istəyir. Bizə təklif olunanları belə dəyərləndirmək olar: Kilsənin statusunu və onun ictimai həyatdakı rolunu gücləndirmək üçün nə etmək olar?".

O, həmçinin təsdiqləyib ki, avqustun 26 və 29-da Gürcüstan Patriarxlığında yüksək rütbəli din xadimləri və qurumun nümayəndələrinin iştirakı ilə toplantı keçirilib. A. Caqmaidze sonra media mənsublarına bildirib: "Birinci görüş kortəbii olub və yepiskopların hamısı orada iştirak etməyib. Bu səbəbdən də heç bir qərar qəbul edilməyib. İkinci görüşdə isə yüksək rütbəli ruhanilərlə yanaşı hüquqşünaslar da iştirak ediblər. 4 saata yaxın davam edən məsləhətləşmələrdə də yekun nəticə əldə olunmayıb. Bu məsələ ilə bağlı müzakirələr davam edəcək, çünki biz Konstitusiyaya dəyişiklikdən danışırıq, dövlət bir daha bəyan edib ki, kilsənin razılığı olmadan heç bir dəyişiklik olmayacaq".

Bundan əvvəl isə müxalifətdə olan "Formula" telekanalı hakim "Gürcü Arzusu – Demokratik Gürcüstan" partiyasının pravoslavlığı dövlət dini elan etməyi planlaşdırdığını bildirmişdi. Telekanalın məlumatına görə, bu, hakim partiyanın bir ay sonra rəsmən elan edəcəyini bildirdiyi "ənənəvi dəyərlərin qorunması sahəsində gizli təşəbbüsüdür".

"Formula" qeyd edir ki, təşəbbüs "Gürcü arzusu–Demokratik Gürcüstan"-nın yaradıcısı, oliqarx Bidzina İvanişviliyə məxsusdur. "Gürcü arzusu"nun liderləri və İvanişvilinin özü son vaxtlar seçicilərlə görüşlərdə davamlı olaraq deyirlər ki, partiya bir sıra məsələləri həll etmək üçün seçkilərdə konstitusiya çoxluğunu əldə etməlidir. Görünür iqtidar partiyasının lideri Gürcü Pravoslav Kilsəsinin köməyi ilə parlamentdə çoxluğu qazanmaq istəyir.

Amma kilsə rəhbərliyində Bidzina İvanişvilinin təklifi birmənalı qarşılanmır. Dmanisi arxiyepiskopu Zenon pravoslavlığın dövlət dini elan edilməsini yanlış hesab edir: "Belə bir addım əslində kilsənin hökumətə institusional tabeçiliyini nəzərdə tutur və bu, yanlışdır. Kilsənin dövlətdən müstəqil olması hökumətin özünün yaratdığı mümkün böhranlar zamanı zəruridir, ona görə də pravoslavlığı dövlət dini elan etmək səhvdir".

Axalkalaki və Qumburdo yepiskopu Nikoloz Paçuaşvili isə qeyd edib ki, pravoslavlıq dövlət dini elan edilərsə, kilsə dövlətdən müstəqil ola bilməz. Onun fikrincə, bu qərar "ölkəyə xeyir verməyəcək. Patriarx II İlyanın da bu təklifə "sıcaq" baxmadığı bildirilir. O hesab edir ki, indi bunun vaxtı deyil. Təklif hələ 2002-ci ildən mövcud idi. O zaman Patriarx II İlya bu təklifə qarşı çıxmışdı, çünki onun fikrincə, "bu lazım deyil və lazımi tarixi kontekst formalaşmayıb".

Patriarxlıq kilsəsinin dövlət dini elan ediləcəyi təqdirdə maliyyə və əmlak da daxil olmaqla, müstəqilliyini itirəcəyindən ehtiyatlanır. Həmçinin iyeparxiya rəhbərlərinin təyin edilməsi məsələsində hökumət namizədləri təsdiqləmək hüququnu öz əlinə keçirə bilər. Hazırda hökumətin təklifini məqbul sayanlar da var. Onlar hesab edirlər ki, kilsənin bu narahatlıqlarına baxmayaraq, qazanacaqları daha çox olacaq.

İqtidar partiyası Gürcü Pravoslav Kilsəsinin oktyabrın 26-da keçiriləcək parlament seçkilərində dəstəyini almaq və çoxluğu qazanmaq üçün daha bir addım atıb. Bu, kilsəyə maliyyə dəstəyinin artırılmasıdır. Xatırladaq ki, hazırda dövlət və kilsə arasındakı münasibətlər konstitusiya müqaviləsi– Konkordatla tənzimlənir. Müqavilə digər məsələlərlə yanaşı, kilsənin mülkiyyət hüquqlarını da müəyyən edir. Kilsə hər il, təxminən, 30 milyon lari olmaqla dövlət büdcəsindən maliyyə alır. Bu il bu məbləğ artıb.

Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib ki, ötən il hökumət Gürcü Pravoslav Kilsəsinin təhsil layihələrini dəstəkləmək üçün 2024-cü il dövlət büdcəsindən 30 milyon lari ayırıb, sonradan bu məbləğ daha 5 milyon lari artırılıb. Martın 15-də hökumət Patriarxlığa 35 milyon larinin ayrılması barədə müvafiq fərman verib. Bu məbləğdən əlavə, Patriarxlıq dövlət büdcəsindən illik 25 milyon lari məbləğində maliyyə vəsaiti də alır. Nəticədə, 2024-cü ildə Patriarxlığın ümumi maliyyəsi 60 milyon lari təşkil edəcək.

Baş nazir bu məsələ ilə bağlı deyib: "Bu vəsait ötən il qəbul edilən büdcədə bu il üçün nəzərdə tutulub. Ona görə də bunun seçkilərlə heç bir əlaqəsi yoxdur. Bu yaxınlarda, seçkilərdən əvvəl verilən qərar deyil. Patriarxlığın xüsusilə təhsil sahəsində öz layihələrini həyata keçirmək imkanının olması bizim üçün vacibdir".



Bundan əlavə, Patriarxlıq yerli, bələdiyyə büdcələrindən, həmçinin prezidentin və baş nazirin ehtiyat fondlarından milyonlarla lari alır. Əhalidən gələn ianələr də var.

Eyni zamanda, martın 12-də Gürcüstan hökuməti Ozurqeti və Çoxataura bələdiyyələrində torpaq sahələrinin– hektarı simvolik qiymətə 1 lari olmaqla Gürcü Pravoslav Kilsəsinə verilməsi haqqında qərar verib. Dövlət reyestrinə görə, Patriarxlıq bu gün ümumi sahəsi 62,7 kvadrat kilometr olan, demək olar ki, Batumi şəhərinin sahəsinə bərabər olan torpaq sahələrinə, həmçinin çoxsaylı tikililərə və digər daşınmaz əmlaka malikdir. Bütün bu pul qəbzləri, daşınar və daşınmaz əmlak və qanunla müəyyən edilmiş güzəştlər kilsəni Gürcüstanın ən zəngin təşkilatlarından birinə çevirib.

Müxalifət isə hesab edir ki, ölkədə seçkilərin keçirildiyi və ya siyasi böhranın yarandığı hazırkı dönəmdə Patriarxlığa ayrılan vəsait nəzərəçarpacaq dərəcədə artır. Bu, yuxarıda qeyd edilən postulatı bir daha sübut edir: dövlətlə kilsə arasında münasibətlər qarşılıqlı maraqlara əsaslanır. Kilsə hökuməti dəstəkləyir və bunun müqabilində ondan iqtisadi dividendlər gözləyir.

Yuxarıda qeyd etdiyimiz kimi, Gürcüstanda dövlət və kilsə arasında münasibətlər 2002-ci il oktyabrın 14-də rəsmiləşdirilmiş konstitusiya sazişi – Konkordatla tənzimlənir. Konkordat kilsəyə qeyri-məhdud hüquqlar verir və onu digər dinlərdən üstün tutur. Patriarx həbsdən və cinayət məsuliyyətindən immunitetə malikdir. Qanun nəinki başqa dini qurumların rəhbərlərinə, hətta prezidentə belə imtiyazlar vermir.

Bu sənəddə dövlət həm də sovet dövründə kilsənin maddi və mənəvi ziyana uğradığını təsdiq edir və itkiləri ödəməyi öhdəsinə götürür. Məlumat üçün bildirək ki, gürcü kilsəsinə 47 yepiskopdan ibarət sinod rəhbərlik edir. Onlardan 41 nəfəri sahibkarlıq fəaliyyəti ilə məşğuldur, vergi və digər güzəştlərdən istifadə edir, xeyli əmlaka malikdir. Yəni kilsə hər cür dəstək alır.

**P.S.** Gürcüstanda dindarların əsas hissəsi pravoslav xristianlardır (84,9 faiz). Müsəlmanlar (10,9 faiz), erməni apostol kilsəsinin tərəfdarları (3 faiz), katoliklər (0,5 faiz) və digər dinlərin nümayəndələri (0,7 faiz) təşkil edir. 2024-cü ildə ölkədəki digər dini institutların maliyyələşməsi üçün dövlət büdcəsindən 6,5 milyon lari vəsait ayrılıb.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

**Günün sualı**

# Hanı aşıb-daşan tamaşaçı salonları?

**Teatr daim yenilənməyə can atır. Mühafizəkar rejissorlar isə nədənsə buna müqavimət göstərməkdədir. Texnogen erada sənətə münasibət kökündən dəyişdiyi halda eksperimental tamaşalara dodaq büzənlər tapılır. Halbuki sənətin mahiyyətində daim yenilənmək, dəyişmək, forma axtarışları dayanır. Bu, həmişə belə olub.**

Böyük teatr islahatçısı Konstantin Stanislavski bu düşüncədə olmasaydı, Rusiyada və bütün dünyada son dərəcə populyar olan məşhur teatr sistemini yarada bilməzdi. Əks halda, hələ də tamaşalara quruluşu dramaturqlar və aktyorlar özləri verəcəkdi. Vsevolod Meyerhold səhnə sənətində qrotesk üslubunu və biomexanika adıyla məşhurlaşan aktyor sistemini yaratdı və beləliklə, teatr yeni axtarışlar dövrünə qədəm qoydu.

Bertold Brextin epik teatrı teatr tarixində ən əhəmiyyətli hadisələrdən birinə çevrildi. Daha sonra Qrotovskinin teatr laboraratoriyası yarandı. Antonen Arto yeni teatr nəzəriyyəsini işləməyə başladı. Qrotovski yazırdı ki, "biz indi Arto epoxasına daxil olmuşuq". Artonun nəzəriyyəsi özünü doğrultmasa belə, adı sənət tarixinə düşdü. O, XX yüzil mədəniyyətinə böyük təsir göstərmiş və mədəniyyət, teatr barədə düşüncələrdə çevriliş etmiş bir şəxsdir.

XX yüzilin teatr məkanında Qrotovski canlı mif idi. Rejissor ssenarinin reallaşdırılması üçün xüsusi yanaşma formalaşdırmışdı. Məsələn, o tamaşaçı zalını qəbul etmirdi. Onun tamaşalarında tamaşaçı və aktyor hadisədə birgə iştirak edən, iki ayrılmaz şəkildə bir-birinə bağlı elementləri təşkil edirdi. "Yoxsul teatrın" nəzəriyyə və praktikasını yaratmaqla o, teatr tarixində qaldı. Və əfsanəvi Taqanka teatrını xatırlayaq.

Bəs bu gün səhnəmizdə yeni forma nümunələri, yeni texniki metodlar tətbiq edən avanqard rejissorlar yetişirmi? Teatra yeni sistem gətirən nəzəriyyəçi rejissorlarımız varmı? Bu suallara birmənalı cavab vermək bir qədər çətindir. Mövzuya gələcək yazılarımızda toxunacağıq. Bu dəfə isə sənədli dramaturgiya janrı üzərində dayanaq.



Azərbaycan teatrında sənədli dramaturgiya janrı gözə dəymir, bu sahəni inkişaf etdirmək üçün fraqmental cəhdlər var. Hələ ötən əsrin 60-cı illərində bu janr Avropada geniş yayılmışdı. Bu janrın ən görkəmli nümayəndələrindən biri alman dramaturqu Rolf Hoxxot idi. Onun həbs düşərgəsindən bəhs edən "Canişin" pyesi 1963-cü ildə Qərbi Berlində rejissor Ervin Piskatorun quruluşunda səhnə həyatı qazandı və tamaşa görünməmiş uğur qazandı. Repressiya səhnədə sənədlərin dili ilə danışırdı və tamaşaçını həyəcana gətirirdi. Tamaşanın uğurundan həvəsə gələn Hoxxot bundan sonra bir neçə sənədli dram yazdı və o pyeslər də uğurlu səhnə həyatı yaşadı.

Sözsüz, sənədli dramın səhnələşdirilməsində kino elementlərindən, xronikalardan, mütəhərrik proyeksiyalardan da istifadə olunurdu. Bu, kino ilə teatrın sintezindən yaranan yeni bir forma, uğurlu təcrübə mübadiləsi idi. İncəsənətin bu iki sahəsi öz xüsusiyyətlərini itirmədən qarşılıqlı surətdə ifadə vasitələri tapır. Zatən kino da, teatr da eyni ədəbi mənbədən qaynaqlanır.

Görkəmli rus rejissoru və pedaqoqu G.Tovstonoqovun təbirincə desək, bu iki sahənin sərhədləri şərtilik meridianından keçir. Yeri gəlmişkən, Tovstonoqov "Səhnə güzgüsü" kitabında kinonun teatrdan necə qidalandığını müfəssəl şəkildə izah edir. O, qeyd edir ki, kinematoqrafçılar Stanislavski və Nemirov-Dançenkodan çox şey öyrəniblər. Meyerholdun, Vaxtanqovun, Dikiy və Popovun təcrübəsi və istedadı onların karına çox gəlib. Teatr da öz üzərində kino sənətinin təsirini duyub və indi də duymaqdadır. Teatrda kino priyomlarından istifadə pyes və ssenariləri də bir-birinə yaxınlaşdırdı. Dünya teatrlarında elə tamaşalar var ki, onlar ssenarilər əsasında səhnələşdirilib. Tovstonoqov yazır:

"Kinematoqrafın demək olar ki, bütün elementləri teatrda sınaqdan çıxarılıb. Teatrda səssiz kinodakı kimi titrlərlə müşayiət edilən tamaşaları, panoramları, səhnənin qaralmasını, işıq-kölgə oyunlarını gördük. Kinonun təsiri ilə daxili monoloqları və qəhrəmanların çıxışlarını eşitdik. Beləliklə, müasir kinematoqrafın müasir teatra təsirini danmaq qeyri-mümkündür".

Görkəmli rejissor bu fikirlərini yarım əsr bundan öncə dilə gətirib. Dünya teatrlarında sənədli dramaturgiya mühüm yer tutur. Bu janr məhz kino ilə teatrın yaradıcı mübadiləsi nəticəsində meydana gəlib. Buna qəlibdən çıxmış mexaniki üsullardan imtina etməklə nail olublar. Teatr və kino nəzəriyyəçisi Piter Bruk "Boş məkan" kitabında bu barədə geniş yazır. Bugünkü dövrdə teatrın imkanları daha genişdir. Müasir texniki avadanlıqlar vizual effekt baxımından teatra kinematoqrafik elementlər əlavə etmək üçün çox əlverişlidir. Bu imkanlardan faydalanıb forma axtarışları aparmaq mümkündür.

Unutmaq lazım deyil ki, zalda əyləşənlər XXI əsrin insanlarıdır. Bu gün süni intellekt (alqoritmlər) insan emosiyası üzərində piano dillərində gəzişən kimi gəzişir. İnsanın biometrik məlumatlarından istifadə edən alqoritmlər bizim üçün hətta fərdi melodiyalar da bəstələyə bilir. Əlbəttə, fərdiləşmiş sənət cəlbedici olub dəbə minə bilməz. Əgər sənət həqiqətən insan emosiyasını ilhamlandırmaq və ya manipulyasiya etmək üçündürsə, lap cüzi sayda olsa belə, dramaturqun, rejissorun alqoritmlə bəhsə girmək şansı ola bilər. Çünki yaradıcı insan bu məsələdə əsas alət olan insanın biokimyəvi sistemini işlətməkdə alqoritmlə yarışa bilməz.



Bəs necə edək ki, nanotexnologiya dövründə teatra marağı qoruyub saxlaya bilək? Bu baxımdan, sənədli dram janrının inkişaf etdirilməsinə ehtiyac var. Bu janrda əsərlər yazılmalıdır və səhnəyə qoyulmalıdır. Bu yaxınlarda sənətşünas Azər Turanın "Atam, anam, qardaşım, mən və Stalin" dramı C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında səhnə təcəssümünü tapdı. Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Bəhram Osmanov idi. Hüseyn Cavidin faciəli həyatından bəhs edən tamaşa çox böyük marağa səbəb oldu, kifayət qədər müsbət reaksiyalar doğurdu. Cavidlər aləsinin iztirablarla keçən həyatı tamaşada şairin qızı Turan Cavid obrazının nümunəsində əyanıləşdi. Xatirələr, məktublar, gerçəkdə baş verən hadisələr, bütünlükdə Cavid faciəsi, ötüb keçən əzabla dolu ömür övladlarının, ailəsinin yaşantılarında uğurlu aktyor oyunu nümunəsində əksini tapdı.

Bu tamaşanın ardınca Əməkdar İncəsənət xadimi Mehriban Ələkbərzadənin 37-ci il repressiyası zamanı müsibətlər yaşayan Azərbaycan qadınlarına həsr olunmuş "Kod adı: V.X.A." tamaşası Dövlət Milli Gənc Tamaşaçılar Teatrında nümayiş olundu. Yenə böyük maraq və anşlaq!

Xalq artisti, görkəmli rejissorumuz Mərahim Fərzəlibəyovun Bakı Bələdiyyə Teatrında hazırladığı "Xan qızı" tamaşası da sənədlərin dili ilə danışır. Böyük yazıçımız İlyas Əfəndiyevin "Natəvan" dramı əsasında hazırlanmış tamaşada Xurşudbanu Natəvanın acı taleyi sənədlilik prinsipi ilə işlənib və rejissor Natəvana fərqli rakursdan baxa bilib. Nəticədə, son dərəcə uğurlu tamaşa ərsəyə gəlib.

Azərbaycan teatrında çox az sayda belə nümunələr var. Könül istərdi ki, tarixi şəxsiyyətlərimz, Vətən Müharibəsi qəhrəmanları haqqında sənədli dram əsərləri yazılsın və səhnələşdirilsin. Yeni və fərqli formalar tapılsın. Eyni zamanda bu istiqamətdə işlərin gerçəkləşməsi üçün ömrünü teatra həsr etmiş peşəkar rejissorlarımıza da meydan verilməlidir.

***Kənan HACI,***
***yazıçı-publisist***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 190 (30594) 3 sentyabr 2024-cü il, çərşənbə axşamı

# Bu il "İdmanın ürəyi Qubada döyünür"

## *Şəhərdə "Ulduz cup" beynəlxalq turniri keçirilir*




**Dünən 2024-cü il üçün Azərbaycanın "İdman paytaxtı" elan olunmuş Quba şəhərində 12 yaşadək futbolçular arasında "Ulduz cup" beynəlxalq turniri start götürüb.**

Turnir Gənclər və İdman Nazirliyi, AFFA və "Ulduz" Futbol Akademiyasının birgə təşkilatçılığı ilə keçirilir.

Quba Olimpiya İdman Kompleksində yarışın açılış mərasimində çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Mahmudov ölkəmizdə idmanın inkişafından danışıb. Qeyd edib ki, idmanın kütləviliyinin artırılması istiqamətində bir sıra işlər görülür. O, belə bir yarışın təşkilinə görə Gənclər və İdman Nazirliyinə təşəkkürünü bildirib.

Bu il "İdmanın ürəyi Qubada döyünür" şüarı altında tədbirlərin keçirildiyini deyən natiq bölgədə ilk dəfə beynəlxalq futbol turnirinin təşkil olunduğunu söyləyib.

Gənclər və idman naziri Fərid Qayıbov "Ulduz cup" beynəlxalq turnirinin ölkədə uşaq futbolunun inkişafına dəstək olacağını bildirib. Nazir "Ulduz" Futbol Akademiyasının gördüyü işlərdən söz açıb və komandalara uğurlar arzulayaraq yarışı açıq elan edib.

Qeyd edək ki, turnirdə 5 ölkədən 8 komanda 2 qrupda mübarizə aparır.

A qrupunda Şimali Kipr millisi, "Bunyodkor" (Özbəkistan), "Ulduz" FA və "Quba" OİK, B qrupunda isə "Dinamo" (Minsk, Belarus), "Saburtalo" (Gürcüstan), "Qarabağ" və "Metak" qüvvəsini sınayacaq.

Sentyabrın 6-da turnirə yekun vurulacaq.

*L.QURBANOVA,*
*C.QAÇAYEV*
*XQ*

# Paralimpiya komandamızın daha bir Paris qızılı

**Fransanın paytaxtı Parisdə keçirilən Yay Paralimpiya Oyunlarında Azərbaycan komandasının uğurlu çıxışı davam edir.**




Komandamız dünənki yarışlarda daha bir qızıl medal qazanıb. Azərbaycan təmsilçisi Səid Nəcəfzadə T12 kateqoriyasında uzunluğa tullanma növündə böyük əzmkarlıq göstərərək 7,27 metr nəticə ilə rəqibləri üçün əlçatmaz olub. Tokio Paralimpiadasında bürünc medal qazanan idmançımız bu dəfə çempion adına layiq görülüb.

Dünən, həmçinin ən titullu paralimpiyaçımız Raman Salei S13 kateqoriyasında 50 metr məsafəyə sərbəst üsulla üzmədə gücünü sınayıb. İdmançımız 24,39 saniyə ilə 9-cu olub. O, ilk 8-liyə düşə bilmədiyi üçün finala vəsiqə qazanmayıb.

Bununla da, komandamızın qazandığı medalların sayı 4-ə çatıb. Parataekvondoçulardan İmaməddin Xəlilov (K44 kateqoriyası, 70 kiloqram) Paralimpiya çempionu olub, Raman Salei (S12 kateqoriyası, 100 metr məsafəyə arxası üstə üzmə) gümüş, Sabir Zeynalov (K44 kateqoriyası, 58 kiloqram) bürünc medal qazanıb.

*XQ*

# Süni intellekt kardioloqdur



**Süni intellekt (AI) ürək problemlərinə səbəb ola biləcək riskli xəstəlikləri araşdırıb tapmağa kömək edə bilər. Belə ki, İngiltərənin Lids Universitetində 2 milyondan çox insanı müalicə edəcək "Optimise" adlı süni intellekt sistemi hazırlanıb.**

Yeni cihaz elmi sınaqlardan uğurla keçmiş və 400 mindən çox insanda ürək çatışmazlığı, insult və diabet kimi riskli xəstəlikləri müəyyən edə bilmişdir.

Nəticələri London Avropa Kardiologiya Cəmiyyətinin konqresində təqdim edən tədqiqatçıların sözlərinə görə, qurğu vasitəsilə daha böyük kliniki sınaqların keçirilməsi nəzərdə tutulur.

Tibb elmləri doktoru Nadarajah deyib: "Ümid edirik ki, bu cihaz apardığımız tədqiqatlar nəticəsində ürək və qan dövranı xəstəlikləri olan pasiyentlərə faydalı olacaq, həmçinin yüksək qan təzyiqini azaltmağa kömək edəcək".

Qeyd edək ki, Böyük Britaniyada ölümlərin əksər hissəsi ürək və qan dövranı xəstəlikləri səbəbindən baş verir. Bu xəstəliklərin qarşısını almaq və onlara səbəb ola biləcək neqativləri aşkar etmək üçün süni intellekt texnologiyasının gücündən istifadə edilir.

*S. FİDAN*
*XQ*



# İnsafın olsun, ay külək!

**Güclü külək Quba və Xaçmazda fəsadlar törədib. Quba şəhərinin 20 Yanvar küçəsində külək irigövdəli ağacı "Chevrolet" markalı avtomobilin üzərinə aşırıb. Xəsarət alan olmasa da, avtomobilə ciddi ziyan dəyib.**

Qubada və Xaçmazda külək elektrik təsərrüfatına da ziyan vurub. Xətlərin qırılması səbəbindən bir sıra yaşayış məntəqələrində enerjinin verilişi müvəqqəti dayandırılıb. Aidiyyəti qurumların əməkdaşları fəsadların aradan qaldırılması üçün fəaliyyətə başlayıblar.

Şimal bölgəsində səhər saatlarından başlayan güclü külək davam edir.

*XQ*

# Bu gün – Bakıda 36°, bölgələrdə – 38° isti



**Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Cənub-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Bu barədə mətbuata Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Qeyd edilib ki, havanın temperaturu gecə 20-25° isti, gündüz 31-36° isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 40-45 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi dağlıq ərazilərdə zəif duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 20-25° isti, gündüz 33-38° isti, dağlarda gecə 13-18° isti, gündüz 21-26° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

## Danışan fotolar




foto Elşən AĞALAR

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3780
SİFARİŞ 2009
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00